Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 107 (8130) CÜMƏ, 17 may 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Daha 32 pillə irəlidə

## Dünya Bankının "Doing Business-2019" hesabatı: Azərbaycan 190 ölkə sırasında 25-cidir

Biz hər yazanda, hər deyəndə ki, ölkənin sosial-iqtisadi həyatında son vaxtlar baş verənlər real islahatlardır, bəziləri buna ağız büzüb başqa ad verməyə cəhd edirlər. Dəridən-qabıqdan çıxaraq sübut etmək istəyirlər ki, Prezidentin sözügedən istiqamətdə atdığı addımlar, verdiyi qərarlar, imzaladığı fərman və sərəncamlar, təsdiqlədiyi proqramlar hər nədirsə, islahat deyil. Sanki islahatlar onların bütün güman və ehtimallarının itirilməsi, proqnozlarının iflası, gözlədiklərinin tərsidir.

Götürəndə, həqiqət də belədir və yaqin, elə bu üzdən məlum qərəzli siyasi iqtisadçıların Azərbaycanda sürətlə reallaşan islahatlara və onların nəticələrinə, yumşaq desək, qısqanclıqla yanaşmaları təbiidir. Təbii olan həm də onlardan obyektivlikləri ilə fərqlənən nüfuzlu beynəlxalq maliyyə qurumlarının, reytinq agentliklərinin bu islahatlara yüksək qiymət vermələridir.

AR İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi "Doing Business-2020" islahatlarına dair növbəti icmalını hazırlamışdır. İcmalda 11 indikator üzrə aparılan islahatlar barədə ətraflı məlumatlar təqdim olunur. Vurğulanır ki, sözügedən dövrdə ölkədə biznes mühitinin əlverişliliyinin daha da artırılması üçün vergi və gömrük islahatları davam etmiş, onlayn vahid ixrac ərizəsi, yaşıl dəhliz, elektron məhkəmə, tikintidə "Bir pəncərə", biznesə başlamaq, elektrikə çıxış, kreditlərə əlçatanlıq, müqavilələrin icrası, əmlakın qeydiyyatı sahələrində mühüm islahatlar həyata keçirilmişdir.

İcmalda bildirilir ki, Dünya Bankı tərəfindən hazırlanan "Doing Business-2019" hesabatında Azərbaycan




190 ölkə arasında 32 pillə irəliləyərək, 57-ci pillədən 25-ci (o cümlədən biznesə başlamaq üzrə 18-ci pillədən 9-cuya, tikinti üçün icazələrin alınması üzrə 161-ci pillədən 61-ci, elektrik təchizatı şəbəkələrinə qoşulmaya görə 102-ci pillədən 74-cü, əmlakın qeydiyyatı üzrə 21-ci pillədən 17-ci, kreditlərin alınmasına görə 122-ci pillədən 22-ci, kiçik investorların maraqlarının qorunmasına görə 10-cu pillədən 2-ci, vergilərin ödənilməsi üzrə 35-ci pillədən 28-ci, müflisləşmənin həllinə görə 47-ci pillədən 45-ci) yerə yüksəlmişdir.

İcmaldan məlum olur ki, *biznesə başlamaq* sahəsində ("Doing Business" üzrə bal 96,14) əgər əvvəl onlayn qeydiyyat üçün elektron imza tələb edilirdisə, indi buna ehtiyac yoxdur. Eləcə də əvvəllər tələb edilən işçilərin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində qeydiyyatdan keçirilməsinə də gərək qalmayıb. İndi işçilər qeydiyyat tamamlandıqdan dərhal sonra fəaliyyətə başlaya bilərlər. Onlayn qeydiyyat üçün tələb edilməyən prosedurlar sırasında "ASAN İmza" da var. Asanlaşdırılan prosedurlardan digərləri isə Vergilər Nazirliyinin saytında FİN nömrə daxil etməklə onlayn qeydiyyatın vahid platformada aparılması, həmçinin işə götürüləcək şəxslər barədə məlumatların onlayn qeydiyyat ərizəsinə daxil olunmasıdır. Daha vacib bir məqam: bu gün Azərbaycanda biznesə başlamaq üçün bir prosedur, yarım gün və 0 manat lazımdır. Halbuki əvvəl bu iş üçün 3 prosedur, 3,5 gün və 90 manat xərc tələb edilirdi.

*Tikinti üçün icazələrin alınması* ("Doing Business" üzrə bal 73,1) sahəsində də kifayət qədər islahatlar aparılmışdır. Bu islahatlar nəticəsində tikinti şirkətinin elektron müraciət əsasında 15 iş günü müddətinə icazə verən orqandan cavab almaq hüququ yaranmışdır. İndi Fövqəladə Hallar Nazirliyi özülqurașdırma işlərinin yoxlanmasını, eləcə də yekun yoxlama və istismara hazırlıq aktının verilməsini bir iş günü ərzində tamamlamalı, "Azərsu" ASC 7 gün müddətinə obyektin su xəttinə qoşulmasını həyata keçirməli, icazəverən orqan elektron müraciət sistemi əsasında qanunvericiliyə əsasən müvafiq sənədlərlə istismar üçün müraciət edən şirkətə 10 gün ərzində cavab verməli, Daşınmaz Əmlakın Dövlət Reyestrində qeydiyyat isə 4 günə başa çatdırılmalıdır.

*Ardı 4-cü səh.*

# Azərbaycanda müxtəlif sahələrdə aparılan köklü islahatlar Çexiyada təqdir olunur



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Çex Respublikası Parlamentinin Deputatlar Palatasının sədri Radek Vondraçekin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Çex Respublikası arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini, siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu qeyd etdi. Çex Respublikası Prezidentinin Azərbaycana səfərini xatırlayan Prezident İlham Əliyev parlamentlərarası əlaqələrin genişlənməsinin də münasibətlərin inkişafına töhfə verdiyini dedi. Dövlətimizin başçısı iqtisadi əməkdaşlığın yaxşı perspektivlərə malik olduğunu bildirərək Çex Respublikası Hökuməti üzvlərinin də Azərbaycana uğurlu səfər etdiklərini dedi və iqtisadi, ticarət, investisiya sahələrində əlaqələrin genişləndirilməsinin zəruriliyini bildirdi. Prezident İlham Əliyev Çex Respublikası Parlamentinin Deputatlar Palatasının sədri Radek Vondraçekin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin səmərəli keçəcəyinə və əlaqələrimizin möhkəmlənməsi işinə xidmət edəcəyinə əminliyi ifadə etdi.

Çexiya Parlamentinin Deputatlar Palatasının sədri Radek Vondraçek Çex Respublikasının Prezidenti Miloş Zemanın salamlarını dövlətimizin başçısına çatdırdı. Geniş nümayəndə heyəti ilə Azərbaycana səfər etdiklərini deyən Radek Vondraçek Çex Respublikası Parlamentində müxtəlif partiyaları təmsil edən Çexiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun fəaliyyət göstərdiyini diqqətə çatdırdı. O bildirdi ki, Çex Parlament nümayəndə heyətinin Azərbaycana səfərinin əsas məqsədi ölkələrimiz arasında mövcud olan çox yaxşı münasibətlərin daha da inkişaf etdirilməsi işinə töhfə verməkdir. Radek Vondraçek Azərbaycanda müxtəlif sahələrdə aparılan köklü islahatların təqdir edildiyini, Çexiya investorları tərəfindən Azərbaycana böyük maraq göstərildiyini diqqətə çatdırdı.

Görüşdə Azərbaycan Respublikası ilə Çex Respublikası arasında münasibətlərin həm ikitərəfli, həm də Avropa İttifaqı çərçivəsində uğurla inkişaf etdiyi vurğulandı və eyni zamanda, hökumətlərarası birgə komissiyanın işinin fəallaşdırılmasının vacibliyi qeyd olundu.

Dövlətimizin başçısı Çex Respublikasının Prezidenti Miloş Zemanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Çexiya Prezidentinə çatdırmağı xahiş etdi.

# Norveçin Kralı əlahəzrət V Haralda

Əlahəzrət!

Norveç Krallığının milli bayramı - Konstitusiya Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik etməkdən məmnunluq duyuram.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Norveç xalqına daim sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 may 2019-cu il*

# İLHAM ƏLİYEV daha bir sahədə idxaldan asılılığı aradan götürür



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Pirallahı Sənaye Parkında "Diamed" şpris istehsalı zavodunun açılış mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, iqtisadiyyat naziri Şahin Mustafayev və "Diamed" şpris istehsalı zavodunun təsisçisi Aytən Quliyeva dövlət başçısına bu istehsal müəssisəsi barədə məlumat verdilər.

Qeyd edək ki, hazırda Azərbaycanda Prezident İlham Əliyevin müvafiq fərman və sərəncamlarına uyğun olaraq kimya, təkrar emal, yüngül sənaye, gəmiqayırma, əczaçılıq sahələrində ixtisaslaşmış 5 sənaye parkı fəaliyyət göstərir. Bu sənaye parklarında 9 minə yaxın insan daimi işlə təmin olunub. Prezident İlham Əliyevin 2016-cı ildə imzaladığı sərəncama əsasən isə "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin tərkibində Pirallahı Sənaye Parkı yaradılıb. Bu parkın yaradılmasında məqsəd qeyri-neft sənaye sahələrinin davamlı inkişafını, sənaye sahəsində sahibkarlıq fəaliyyətinin daha da genişləndirilməsini, qabaqcıl texnologiyalara əsaslanan rəqabətqabiliyyətli və innovativ sənaye sahələrinin yaradılmasını təmin etməkdir. Bundan başqa, bu layihənin icrası əczaçılıq sənayesinin inkişafı və dəstəklənməsi, əczaçılıq məhsullarının idxalından asılılığın azaldılması, əhalinin dərman vasitələrinə tələbatının ödənilməsində yerli istehsalın təşviqi və istehsal sahəsində əhalinin məşğulluğunun artırılması məqsədi daşıyır. Ümumi sahəsi 30 hektar olan parkın rezidentləri 7 il ərzində torpaq, gəlir, əmlak, əlavə dəyər vergilərindən, həmçinin idxal olunan texnika, texnoloji avadanlıqlara görə gömrük rüsumundan azaddırlar.

Park yaradılandan bəri burada əczaçılıq sahəsində bir sıra mühüm layihələrin həyata keçirilməsinə başlanılıb. Reallaşdırılan mühüm layihələrdən biri də şpris zavodudur. Azərbaycanda ilk şpris zavodu olan bu müəssisə parkın 2017-ci ilin mayında rezidenti kimi qeydiyyata alınan "Diamed Co" MMC tərəfindən inşa edilib.

Dövlət başçısı zavodu işə saldı.

Bildirildi ki, müxtəlif tutumlu birdəfəlik şprislərin istehsalı zavodunun illik istehsal gücü 150 milyon şprisdir. İnvestisiya dəyəri 9,5 milyon manat olan bu layihəyə İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən 5 milyon manat güzəştli kredit verilib. İki hektar ərazidə yerləşən zavodda Almaniya, İsveçrə, İtaliya, Türkiyə, İngiltərə və Yaponiya texnologiyaları və avadanlıqlarından istifadə olunur. Müəssisədə istehsal edilən məhsullar yerli bazarın tələbatını ödəməklə yanaşı, Rusiya, Gürcüstan, İran və Orta Asiya ölkələrinə ixrac ediləcək. Bu isə "Made in Azerbaijan" brendi ilə ixrac olunan məhsulların çeşidini və sayını artırmağa imkan verəcək. Zavodda 150 yeni iş yeri yaradılacaq.

İqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasətin prioritet istiqamətlərindəndir.

*Ardı 2-ci səh.*

# Azərbaycan səhiyyəsi inkişafında yeni mərhələyə keçəcək

## 2020-ci il yanvarın 1-dən ölkə üzrə icbari tibbi sığorta tətbiq ediləcək

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında ölkə rəhbəri tərəfindən xüsusi olaraq vurğulanmışdır ki, sabitlik, davamlı inkişaf, idarəetmə sistemində təkmilləşmə, yeni hədəflər Azərbaycanın bugünkü reallıqlarıdır.



Ölkə rəhbəri çıxışında icbari tibbi sığorta məsələsinə də toxunaraq bildirib ki, qarşıya qoyulan əsas hədəflərdən biri vətəndaşların yüksək tibbi xidmətlərlə təmin edilməsidir: "Azərbaycan əhalisinin bütün təbəqələri, həm muzdlu işçilər, həm işləməyənlər, həm də sahibkarlar qanunda tələb olunmuş şərtlər daxilində bütün ölkə üzrə əsas tibbi xidmətlərdən yararlana biləcəklər. Səhiyyə xidmətlərinin icbari tibbi sığorta ilə inkişaf etdirilməsi dünyada sınaqdan keçirilən uğurlu bir nümunə kimi təbliğ olunmalıdır".

Dövlət başçısı əhatə etdiyi dövrün hesabatı kimi iclasda səsləndirilən statistik rəqəmlərin, verilən proqnozların özünü doğrultduğunu, hədəflərin gerçəkliyə çevrildiyini təsdiqlədi. Eyni zamanda, iclasda üç mühüm sahə üzrə yeni sosial-iqtisadi modelə keçilməsinin anonsu verildi.

Bu keçidlərin biri də Azərbaycanda dünya standartlarına uyğun icbari tibbi sığortanın tətbiqidir. Ölkəmizdə iki ilə yaxındır ki, icbari tibbi sığortanın pilot layihə şəklində həyata keçirilməsinə başlanmışdır. Məqsəd səhiyyə sisteminin maliyyələşdirilməsini dayanıqlı iqtisadi əsaslarla qurmaq, əhalini sağlamlığı ilə bağlı maliyyə risklərindən qorumaqdır. Bu, həm də səhiyyə sahəsinə ayrılan maliyyə vəsaitlərindən səmərəli istifadə edilməsinə və əhalinin tibbi xidmətdən istifadə imkanlarının artırılmasına zəmin yaradır.

*Ardı 4-cü səh.*

# İLHAM ƏLİYEV daha bir sahədə idxaldan asılılığı aradan götürür

*Əvvəli 1-ci səh.*

Bu baxımdan iqtisadiyyatın digər sahələri ilə yanaşı, sənayenin inkişafına xüsusi önəm verilir. Dövlət başçısının sənayenin inkişafı ilə bağlı strateji xəttinə uyğun olaraq, ölkəmizdə həyata keçirilən genişmiqyaslı sənayeləşmə siyasəti nəticəsində rəqabətqabiliyyətli və ixracyönümlü yüzlərlə yeni sənaye müəssisəsi yaradılıb, tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artıb, ixracın həcmi yüksəlib, beləliklə, ölkə sənayesi yeni inkişaf mərhələsinə qədəm qoyub.

Dövlət başçısı zavodun kollektivi ilə görüşdü.

Müəssisənin kollektivini salamlayan Prezident **İlham ƏLİYEV** dedi:

- Bu gün Pirallahı rayonunda çox əlamətdar hadisəni qeyd edirik. Burada istehsal ediləcək şprislər bizim səhiyyə sistemində istifadə olunacaq və beləliklə, Azərbaycan bu sahədə də idxaldan asılılığı aradan götürmüş olacaq.

Hər bir yeni müəssisənin açılışı məni sevindirir. Çünki hər bir müəssisənin açılışı yeni iş yerləri deməkdir. Mənə verilən məlumata görə, burada ilkin mərhələdə 30, sonra isə 150 yeni iş yeri yaradılacaq. Beləliklə, burada işsizliklə bağlı problemlər öz həllini tapacaq.

Bütövlükdə Pirallahı rayonunda işsizliklə problem demək olar ki, yoxdur. Son illərdə Pirallahı rayonunda çox böyük quruculuq-abadlıq işləri aparılıb, rayonun, adanın siması gözəlləşib, çox böyük inkişaf var, yaşayış binalarının təmiri, yeni ictimai zonaların, iş yerlərinin yaradılması, yeni körpünün salınması, yəni, bütün bunlar rayonun gələcək inkişafına qoyulan sərmayədir və rayona göstərilən diqqətdir.

Bu zavodda bizim siyasətimiz öz əksini tapır. Çünki idxaldan asılılığı azaltmaq bizim üçün əsas məsələlərdən biridir. Bu günə qədər biz şprisləri xaricdən alırdıq, indi isə buna ehtiyac qalmır, əksinə, verilən məlumata görə, artıq xaricdən sifarişlər də alınır. Beləliklə, həm daxili tələbat tam ödəniləcək, həm də biz öz yeni məhsulumuzu xaricə ixrac etmiş olacağıq. Bu, sənayemizin inkişafına verilən töhfədir. Ölkəmizdə sənaye istehsalı artır. Görülən işlər nəticəsində bu ilin dörd ayında qeyri-neft sektorunda 15 faizdən çox artım olub. Həm sənaye potensialımızı gücləndirən böyük müəssisələr fəaliyyətə başlayır, həm də kiçik və orta müəssisələr işə düşür. Ölkəmizdə çox gözəl biznes mühiti, sərmayə iqlimi var. Belə olmasaydı, xarici şirkətlər, yerli şirkətlər vəsait qoymazdılar. Beləliklə, biz biznes mühitinin yaxşılaşması nəticəsində yeni reallıqları görürük və əminəm ki, dinamik inkişafımız bundan sonra da təmin ediləcək. İqtisadi və sosial sahədə aparılan islahatlar nəticə verir. Biz Dünya Bankının biznes mühitinə dair hesabatına görə, bu gün dünyada 25-ci yerdəyik. Mən bunu dəfələrlə qeyd edirəm, ictimaiyyət bilsin ki, nə qədər böyük islahatlar aparılıb və aparılacaq. Bu, imkan verir ki, biz sosial sahəni də gücləndirək, işsizliyi aradan qaldıraq, yerli istehsalı artıraq və beləliklə, vətəndaşların sosial təminatını gücləndirək. Bu il atılan addımlar, imzalanmış sərəncamlar, qəbul edilmiş qərarlar bizim siyasətimizi əks etdirir. Biz sosialyönümlü siyasət aparırıq və bu siyasət öz nəticəsini verir.











Əlbəttə, gələcəkdə hələ çox işlər görüləcək. Regionların sosial-iqtisadi inkişafı üzrə dördüncü Dövlət Proqramı artıq icra edilməyə başlamışdır. Əminəm ki, bu il nəzərdə tutulan bütün vəzifələr icra ediləcək. Dinamik inkişafa nail olmaq üçün qeyri-neft sektorunun xüsusi rolu var. Biz bu məsələ ilə çox ciddi məşğuluq və nəticələr də göz qabağındadır. Biz bir neçə il bundan əvvəl bu zavodun yaradılmasını bəlkə də təsəvvür edə bilməzdik, xüsusilə Pirallahı rayonunda. Burada ümumiyyətlə qeyri-neft sektoru ilə bağlı işlər demək olar ki, yavaş gedirdi. Ancaq bu gün bu zavod reallıqdır. Bu, Pirallahı Sənaye Parkında birinci zavoddur. Çünki burada bir neçə müəssisə yaradılacaq. Hazırda tikilməkdə olan böyük dərman preparatları zavodunun fəaliyyətə başlaması nəticəsində daha çox iş yerləri açılacaq və biz dərman preparatlarının idxalından asılılığı müəyyən dərəcədə aradan götürəcəyik. Digər zavodların fəaliyyətə başlaması nəzərdə tutulur. O cümlədən sosial məsələlər öz həllini tapır. Məcburi köçkünlər üçün yeni evlər tikilir və burada 300 köçkün ailəsi evlə təmin olunacaq, məktəb tikilir. Yəni, bu gün bu zavodun timsalında görülmüş işlərin gözəl nəticələrini görürük, siyasətimizin uğurlu nəticələrini görürük və bu, bizi gələcəkdə yeni addımların atılmasına sövq etməlidir. Biz düzgün yolla inkişaf edirik və dinamik inkişaf bundan sonra da mütləq gedəcək.

İslahatlarla bağlı bizim siyasətimiz bu gün burada bir daha özünü göstərir. Əminəm ki, növbəti dövrdə həm sənaye, həm kənd təsərrüfatı, həm də infrastruktur sahələrində daha geniş miqyasda əlavə nəticələr olacaqdır.

Sizi bu gözəl hadisə münasibətilə təbrik edirəm, zavodun əməkdaşlarına uğurlar arzulayıram. Sağ olun.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

---

## Gəncə şəhəri ərazisində Gəncəçay çayı üzərində körpülərin bərpası ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Gəncə şəhərinin Şah İsmayıl Xətai və Nizami Gəncəvi prospektlərinin, Museyib Bağırov, Mirzə Abbas Abbaszadə və Əlövsət Məmmədov küçələrinin Gəncəçay çayı ilə kəsişməsində yerləşən və qəzalı vəziyyətdə olan 5 körpünün bərpası məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 6,4 milyon (altı milyon dörd yüz min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 may 2019-cu il*

---

## R.İ.Cəlilovanın "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan rəqs sənətinin inkişafı və təbliğindəki xidmətlərinə görə Roza İsmayıl qızı Cəlilova "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 may 2019-cu il*

---

## "Azərbaycan Respublikasında keçirilən UEFA 2019 Avropa Liqasının final oyunu və UEFA 2020 Futbol çempionatının oyunları ilə əlaqədar vergi və gömrük güzəştləri və azadolmalarının tətbiqi üçün təsdiqedici sənədin verilməsi Qaydası"nın təsdiq olunması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" 2019-cu il 9 aprel tarixli 1559-VQD nömrəli və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2019-cu il 9 aprel tarixli 1560-VQD nömrəli qanunlarının tətbiqi ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikasında keçirilən UEFA 2019 Avropa Liqasının final oyunu və UEFA 2020 Futbol çempionatının oyunları ilə əlaqədar vergi və gömrük güzəştləri və azadolmalarının tətbiqi üçün təsdiqedici sənədin verilməsi Qaydası" təsdiq olunsun (əlavə edilir).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 may 2019-cu il*

---

## "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 25-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 779; 2016, № 1, maddə 21, № 2 (I kitab), maddə 206, № 6, maddə 972; 2017, № 3, maddə 340) 20.0.20-ci maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 20.0.21-ci maddə əlavə edilsin:

"20.0.21. Azərbaycan Respublikasında keçirilən UEFA 2019 Avropa Liqasının final oyunu və UEFA 2020 Futbol çempionatının oyunları ilə əlaqədar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) təsdiqedici sənəd əldə edən həmin oyunlarda iştirak edən və ya oyunların təşkilinə və ya keçirilməsinə cəlb olunmuş şəxslər tərəfindən həmin oyunlarla bağlı malların idxalı.".

**Maddə 2.** Bu Qanun 2019-cu il martın 1-dən 2020-ci il avqustun 1-dək qüvvədədir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 aprel 2019-cu il*

---

## "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 9 aprel tarixli 1560-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 9 aprel tarixli 1560-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki:

3.1. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun 20.0.21-ci maddəsində (hər iki halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

3.2. həmin Qanunun 20.0.21-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Futbol Federasiyaları Assosiasiyası nəzərdə tutulur.

4. Bu Fərman 2019-cu il martın 1-dən 2020-ci il avqustun 1-dək qüvvədədir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 may 2019-cu il*

# Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12 (I kitab), maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2 (I kitab), maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7 (I kitab), maddələr 1414, 1427, № 11, maddələr 2186, 2210, № 12 (I kitab), maddələr 2498, 2509; Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr 1413-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 102.1.33-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 102.1.34-cü maddə əlavə edilsin:

"102.1.34. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilmiş təsdiqedici sənəd əsasında Azərbaycan Respublikasında keçirilən UEFA 2019 Avropa Liqasının final oyunu və UEFA 2020 Futbol çempionatının oyunları ilə əlaqədar malların təqdim edilməsi, işlər görülməsi və xidmətlər göstərilməsinə cəlb olunmuş qeyri-rezident fiziki şəxslərin bu fəaliyyət çərçivəsində qeyri-rezident futbol klublarının oyunçularının və işçilərinin həmin oyunlarla bağlı əldə etdiyi gəlirləri.";

1.2. 106.1.24-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 106.1.25-ci və 106.1.26-cı maddələr əlavə edilsin:

"106.1.25. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilmiş təsdiqedici sənəd əsasında Azərbaycan Respublikasında keçirilən UEFA 2019 Avropa Liqasının final oyunu ilə əlaqədar UEFA-nın, onun yaratdığı qeyri-rezident hüquqi şəxslərin, qeyri-rezident futbol klublarının (assosiasiyalarının) həmin oyunla bağlı əldə etdiyi gəlirləri;

106.1.26. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilmiş təsdiqedici sənəd əsasında Azərbaycan Respublikasında keçirilən UEFA 2020 Futbol çempionatının oyunları ilə əlaqədar UEFA-nın, onu təmsil edən və onun yaratdığı qeyri-rezident hüquqi şəxslərin, habelə qeyri-rezident futbol klublarının (assosiasiyalarının) çempionatla bağlı əldə etdiyi gəlirləri.";

1.3. aşağıdakı məzmunda 125.4-cü maddə əlavə edilsin:

"125.4. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilmiş təsdiqedici sənəd əsasında Azərbaycan Respublikasında keçirilən UEFA 2019 Avropa Liqasının final oyunu ilə əlaqədar UEFA-nın, onun yaratdığı qeyri-rezident hüquqi şəxslərin və qeyri-rezident futbol klublarının dividend və faiz gəlirlərinə, habelə UEFA 2020 Futbol çempionatı ilə əlaqədar UEFA-nı təmsil edən qeyri-rezident hüquqi şəxslərin dividend gəlirlərinə bu maddənin müddəaları tətbiq edilmir.";

1.4. 164.1.42-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 164.1.43-cü və 164.1.44-cü maddələr əlavə edilsin:

"164.1.43. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilmiş təsdiqedici sənəd əsasında Azərbaycan Respublikasında keçirilən UEFA 2019 Avropa Liqasının final oyunu ilə əlaqədar UEFA, onun yaratdığı qeyri-rezident hüquqi şəxslər və qeyri-rezident futbol klubları (assosiasiyaları) tərəfindən həmin oyunla bağlı malların təqdim edilməsi, işlər görülməsi və xidmətlər göstərilməsi, habelə malların idxalı;

164.1.44. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilmiş təsdiqedici sənəd əsasında Azərbaycan Respublikasında keçirilən UEFA 2020 Futbol çempionatı ilə əlaqədar UEFA, onu təmsil edən, habelə onun yaratdığı və tərəfindən səlahiyyətləndirilmiş hüquqi şəxslər tərəfindən çempionatla bağlı malların təqdim edilməsi, işlər görülməsi və xidmətlər göstərilməsi, habelə malların idxalı.";

1.5. 165.1.7-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 165.1.8-ci maddə əlavə edilsin:

"165.1.8. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilmiş təsdiqedici sənəd əsasında Azərbaycan Respublikasında keçirilən UEFA 2020 Futbol çempionatının oyunları ilə əlaqədar UEFA və onun yaratdığı hüquqi şəxslər, habelə bu fəaliyyət çərçivəsində UEFA tərəfindən cəlb edilmiş qeyri-rezident fiziki şəxslər tərəfindən malların təqdim edilməsi, işlər görülməsi və xidmətlər göstərilməsi.";

1.6. 188.1.5-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 188.1.6-cı maddə əlavə edilsin:

"188.1.6. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilmiş təsdiqedici sənəd əsasında Azərbaycan Respublikasında keçirilən UEFA 2019 Avropa Liqasının final oyunu və UEFA 2020 Futbol çempionatının oyunları ilə əlaqədar idxal edilən mallar.".

**Maddə 2.** Bu Qanun 2019-cu il martın 1-dən 2020-ci il avqustun 1-dək qüvvədədir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 aprel 2019-cu il*

# "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 9 aprel tarixli 1559-VQD nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 9 aprel tarixli 1559-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki:

3.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 102.1.34-cü, 106.1.25-ci, 106.1.26-cı, 125.4-cü, 164.1.43-cü, 164.1.44-cü, 165.1.8-ci və 188.1.6-cı maddələrində (hər iki halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

3.2. həmin Məcəllənin 102.1.34-cü, 106.1.25-ci, 106.1.26-cı, 125.4-cü, 164.1.43-cü, 164.1.44-cü, 165.1.8-ci və 188.1.6-cı maddələrində birinci halda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti, ikinci halda "orqan (qurum)" dedikdə Azərbaycan Futbol Federasiyaları Assosiasiyası nəzərdə tutulur.

4. Bu Fərman 2019-cu il martın 1-dən 2020-ci il avqustun 1-dək qüvvədədir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 may 2019-cu il*

*Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 may tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasında keçirilən UEFA 2019 Avropa Liqasının final oyunu və UEFA 2020 Futbol çempionatının oyunları ilə əlaqədar vergi və gömrük güzəştləri və azadolmalarının tətbiqi üçün təsdiqedici sənədin verilməsi qaydası

1. Bu Qayda Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (bundan sonra - AFFA) hüquqi və fiziki şəxslərə (bundan sonra - şəxs) Azərbaycan Respublikasında keçirilən UEFA 2019 Avropa Liqasının final oyunu və UEFA 2020 Futbol çempionatının oyunları ilə əlaqədar vergi və gömrük güzəştləri və azadolmalarının tətbiqi üçün təsdiqedici sənəd (bundan sonra - təsdiqedici sənəd) verməsi qaydasını müəyyən edir.

2. Təsdiqedici sənəd Azərbaycan Respublikasının Vergi Məcəlləsi (bundan sonra - Məcəllə) və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə (bundan sonra - Qanun) müəyyənləşdirilmiş güzəştləri və azadolmaları əldə etməyə əsas verən sənəddir.

3. Azərbaycan Respublikasında keçirilən UEFA 2019 Avropa Liqasının final oyunu və UEFA 2020 Futbol çempionatının oyunları ilə əlaqədar təsdiqedici sənəd yalnız Məcəllədə və Qanunda nəzərdə tutulmuş şəxslərə verilir.

4. Təsdiqedici sənədin verilməsi üçün malların təqdim edilməsi, işlər görülməsi və xidmətlər göstərilməsi, habelə malların idxalı ilə əlaqədar bu Qaydanın 3-cü hissəsində nəzərdə tutulan şəxslərin siyahısını Avropa Futbol Assosiasiyaları Birliyi (bundan sonra - UEFA) təsdiq etməli və elektron qaydada AFFA-ya göndərməlidir. Azərbaycan Respublikası Vergilər Nazirliyinin və ya Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin müraciəti əsasında AFFA-nın malların təqdim edilməsi, işlər görülməsi və xidmətlər göstərilməsi ilə bağlı müqavilələrin surətlərinin təqdim edilməsini UEFA-dan tələb etmək hüququ vardır.

5. Təsdiqedici sənəddə onun verildiyi şəxslərə dair aşağıdakı məlumatlar öz əksini tapmalıdır:

5.1. fiziki şəxsdirsə - adı, atasının adı, soyadı, fərdi identifikasiya nömrəsi (Azərbaycan Respublikasının vətəndaşı olan fiziki şəxslərə münasibətdə), futbol klubunun (assosiasiyasının) oyunçusu və ya işçisi olmasına dair məlumat;

5.2. hüquqi şəxsdirsə - adı, qeydiyyatda olduğu ölkədə vergi ödəyicisinin eyniləşdirmə nömrəsi, ünvanı, UEFA-nın yaratdığı və ya onu təmsil edən, yaxud onun tərəfindən səlahiyyətləndirilmiş hüquqi şəxs olmasına dair məlumat.

6. Təsdiqedici sənəd bu Qayda ilə müəyyən edilmiş tələblər nəzərə alınmaqla UEFA tərəfindən rəsmi təqdim edilmiş siyahıda adları sadalanan şəxslərlə bağlı həmin şəxslərin müraciəti olmadan, UEFA-nın müraciəti əsasında AFFA tərəfindən 3 (üç) iş günü ərzində UEFA-ya və bu Qaydanın 3-cü hissəsində qeyd olunan şəxslərə verilir.

7. AFFA verdiyi təsdiqedici sənədlə birgə aşağıda göstərilən məlumatları da elektron qaydada və ya kağız daşıyıcıda 3 (üç) iş günü ərzində Azərbaycan Respublikasının Vergilər Nazirliyinə və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə təqdim etməlidir:

7.1. xidmət (mal, iş) əldə edən və təqdim edən vergi ödəyicisinin adı;

7.2. xidmət (mal, iş) əldə edən və təqdim edən vergi ödəyicisinin qeydiyyatda olduğu ölkədə vergi ödəyicisinin eyniləşdirmə nömrəsi;

7.3. xidmət (mal, iş) əldə edən və təqdim edən vergi ödəyicisinin rezidenti olduğu ölkə;

7.4. xidmətin (malın, işin) adı;

7.5. xidmətin (malın, işin) məzmunu;

7.6. müqavilənin tarixi;

7.7. müqavilənin nömrəsi;

7.8. müqavilənin dəyəri;

7.9. müqavilənin icrasının başlanma tarixi;

7.10. müqavilənin icrasının bitmə tarixi.

8. Təsdiqedici sənədin formasını AFFA təsdiq edir.

9. Azərbaycan Respublikasının Vergilər Nazirliyi və (və ya) Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi bu Qaydanın 7-ci hissəsində göstərilən məlumatlarda uyğunsuzluq və ya çatışmazlıq aşkar etdikdə və onların aradan qaldırılması mümkün olmadıqda bu barədə AFFA-ya dərhal məlumat verməlidirlər.

10. AFFA bu Qaydanın 9-cu hissəsinə əsasən daxil olmuş məlumatı təsdiq etdikdə təsdiqedici sənədin ləğvi barədə qərar qəbul edir və UEFA-nı, Azərbaycan Respublikasının Vergilər Nazirliyini və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsini dərhal məlumatlandırır.

# Baş nazir Novruz Məmmədov XXV Azərbaycan Beynəlxalq Qida Sənayesi və XIII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı sərgiləri ilə tanış olub



Mayın 16-da Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov "Bakı Ekspo" Mərkəzində XXV Azərbaycan Beynəlxalq Qida Sənayesi - "WorldFood Azerbaijan" və XIII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı - "Caspian Agro" sərgiləri ilə tanış olub. Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin mətbuat xidmətindən bildirilib.

Baş nazirə məlumat verilib ki, sərgilərdə dünyanın 32 ölkəsini, ümumilikdə, 440 şirkət, eləcə də 11 milli və regional qrup təmsil edir. "WorldFood Azerbaijan" və "Caspian Agro" sərgilərində Azərbaycan ilə yanaşı, Litva, Rusiya, Sloveniya, Ukrayna, Xorvatiya və digər ölkələrdən şirkətlər yer alır. İtaliya, Türkiyə, Belarus, Gürcüstan, Niderland Krallığı və Şri-Lanka sərgidə milli stendlərlə iştirak edirlər. Stendlərdə ən müasir kənd təsərrüfatı texnikası, əkin-biçin aqreqatları, kənd təsərrüfatı məhsulları təqdim olunur.

Sərgilər Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), AZPROMO, Azərbaycan Respublikası Sahibkarlar Təşkilatları Milli Konfederasiyası, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin dəstəyi ilə keçirilir.

Baş nazir Novruz Məmmədov hər iki sərginin pavilyonları ilə tanış olub.

# Azərbaycan-Çexiya parlamentlərarası əlaqələri müzakirə olunub



Mayın 16-da Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Çex Respublikası Parlamentinin Deputatlar Palatasının sədri Radek Vondraçekin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Əvvəlcə Milli Məclisinin Sədri Oqtay Əsədovun Deputatlar Palatasının sədri Radek Vondraçek ilə təkbətək görüşü olub.

Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib.

Azərbaycan-Çexiya münasibətlərinin yüksək səviyyədə olduğunu bildirən Milli Məclisin sədri Oqtay Əsədov bu səfərin ölkələrimiz, həmçinin parlamentlərimiz arasında əlaqələrin inkişafına töhfəsini verəcəyinə əminliyini ifadə edib.

Milli Məclisin Sədri deyib ki, Azərbaycan Çexiya ilə əlaqələrin hərtərəfli inkişafında maraqlıdır. Ölkələrimiz arasında əlaqələrin tarixindən danışan O.Əsədov qeyd edib ki, hələ sovet dövründə Azərbaycanın Çexiya ilə təhsil, elm sahələrində yaxşı əlaqələri olub. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra iki ölkə arasındakı münasibətlər yeni mərhələyə qədəm qoyub. Bu əlaqələrin yüksək səviyyəyə çıxmasında dövlət başçılarının qarşılıqlı səfərləri böyük rol oynayıb.

Azərbaycan və Çexiya parlamentlərarası əlaqələrindən danışan Milli Məclisin Sədri bildirib ki, bu əlaqələr ölkələrimiz arasında münasibətlərin genişləndirilməsinə dəstək verir.

Oqtay Əsədov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən bəhs edərək diqqətə çatdırıb ki, bu məsələdə Çexiya hər zaman Azərbaycanın ərazi bütövlüyünü, ölkəmizin beynəlxalq hüququn norma və prinsiplərinə söykənən ədalətli mövqeyini dəstəkləyir. Qeyd olunub ki, Ermənistan XX əsrin sonunda Azərbaycanın Xocalı şəhərində soyqırımı törədib. Dünyanın 10-dan çox ölkəsi, həmçinin ABŞ-ın bir sıra ştatları Xocalı soyqırımını tanıyıb. Çexiya parlamenti də 2013-cü ildə bu qətliamı pisləyib.

Çexiya Parlamentinin Deputatlar Palatasının sədri Radek Vondraçek ölkələrimiz arasındakı münasibətlərin daha da genişləndirilməsi üçün böyük potensialın olduğunu bildirib. Çexiya və Azərbaycan arasında parlamentlərarası münasibətlərin yaxşı səviyyədə olduğunu söyləyən Radek Vondraçek parlamentlərarası dostluq qruplarının fəaliyyətindən məmnunluğunu ifadə edib.

Söhbət zamanı iki ölkə arasında iqtisadi-ticari, sərmayə qoyuluşu sahələrinə və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

***AZƏRTAC***
***Foto F.BAĞIROVUNDUR***

# Gənc rəssamlara Yeni Azərbaycan Partiyasının Fəxri fərmanları təqdim olunub





Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə təşkil olunmuş sərgidə iştirak edən gənc rəssamların mayın 16-da Yeni Azərbaycan Partiyasının (YAP) mərkəzi qərargahında təltif olunması mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Baş nazirin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov gənc rəssamların sərgisinin böyük marağa səbəb olduğunu və çoxsaylı insanların, o cümlədən partiyanın üzvlərinin bu sərgini ziyarət etdiklərini bildirib. O, sərginin ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmasının xüsusi əhəmiyyət kəsb etdiyini söyləyib. Əli Əhmədov qeyd edib ki, sərgidə dünyada tanınmış rəssam Sakit Məmmədovun tələbələrinin əsərləri təqdim olunub. Bu yaxınlarda Sakit Məmmədovun rəsm əsərlərinin Böyük Britaniyanın Kral Sarayında nümayiş etdirildiyini deyən Əli Əhmədov bildirib ki, azərbaycanlı rəssam öz əsərləri ilə bütövlükdə ölkəmizin mədəniyyətini və incəsənətini, Azərbaycan həqiqətlərini dünyaya təqdim edir.

Baş nazirin müavini qeyd edib ki, dövlətimizin mədəniyyət və incəsənət sahəsinə göstərdiyi böyük diqqət və qayğı nəticəsində ölkəmizdə çox istedadlı yaradıcı insanlar formalaşıb. Onların əsərləri dünya miqyasında tanınır. Bu fakt bilavasitə ölkəmizin təbliğatında da mühüm rol oynayır.

Sonra gənc rəssamlara Yeni Azərbaycan Partiyasının Fəxri fərmanları təqdim olunub.

# Bakıda Azərbaycan-Çexiya biznes forumu keçirilib

İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə mayın 16-da Bakıda Azərbaycan-Çexiya biznes forumu keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə hər iki tərəfdən rəsmi şəxslərlə yanaşı, maliyyə, nəqliyyat və logistika, təhsil, İKT, təsərrüfat, energetika və sair sahələrdə fəaliyyət göstərən 100-dək iş adamı iştirak edib.

İqtisadiyyat nazirinin müavini Rüfət Məmmədov Azərbaycan-Çexiya əlaqələrinin yüksək səviyyədə olduğunu, əməkdaşlığın bütün sahələrdə inkişaf etdiyini diqqətə çatdırıb. Qeyd edib ki, 2018-ci ildə ölkələrimiz arasında ticarət dövriyyəsi 57 faiz artaraq 1 milyard dolları keçib. Çex şirkətləri Azərbaycanda ümumi dəyəri 2,8 milyard dollardan çox olan dövlət layihələrinə podratçı qismində cəlb ediliblər: "Ölkələrimiz arasında birgə müəssisələrin yaradılması və müxtəlif sahələrdə, o cümlədən sənaye, kənd təsərrüfatı, energetika, kimya, nəqliyyat, turizm, İKT, ekologiya və sair sahələrdə təcrübə mübadiləsinin aparılması üçün geniş imkanlar var. Hər iki ölkə qarşılıqlı investisiya qoyuluşu sahəsində uğurlu əməkdaşlıq edir".

Vurğulanıb ki, Azərbaycan həm ikitərəfli, həm də Avropa İttifaqı (Aİ) ilə əməkdaşlıq çərçivəsində Çexiya ilə münasibətlərin inkişafına böyük önəm verir. Avropa İttifaqı ölkəmizin əsas xarici ticarət tərəfdaşıdır. 2018-ci ildə İttifaq ölkələri ilə ticarət dövriyyəsi 13 milyard dollara çatıb və Aİ Azərbaycanın xarici ticarətində payı 42 faiz təşkil edir. Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır.

Nazir müavini bildirib ki, "Avropa İttifaqının işgüzar mühiti haqqında hesabat: Azərbaycan 2018". Azərbaycanda fəaliyyət göstərən Avropa İttifaqı şirkətlərinin rəyləri" adlı sənəddə siyasi sabitliyin Azərbaycanda işgüzar mühitin 5 ən yaxşı göstəricisindən biri olduğu qeyd edilib. Bundan başqa, "Doing Business 2019" hesabatında Azərbaycan 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb və 10 ən islahatçı ölkə sırasına daxil edilib.

Dövlət başçısının rəhbərliyi ilə ölkəmizdə aparılan uğurlu iqtisadi islahatlar barədə məlumat verən nazir müavini deyib ki, ötən dövrdə sahibkarlığa dövlət dəstəyi mexanizmləri təkmilləşdirilib, sahibkarlıq fəaliyyətinin qeydiyyatı qaydaları əhəmiyyətli dərəcədə sadələşdirilib və dövlət elektron xidmətlərinin əhatə dairəsi genişləndirilib. Cənubi Qafqazın ÜDM-nin 60 faizdən çoxu Azərbaycanın payına düşür.

R.Məmmədov bildirib ki, iqtisadi-ticarət əlaqələrinin inkişafı baxımından işgüzar dairələr arasında əməkdaşlığın genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir və bu istiqamətdə biznes forum, işgüzar görüş və sərgilərin keçirilməsi önəmlidir. Bugünkü biznes forum bu sahədə öz töhfəsini verəcək.

Çex Respublikası Parlamentinin Deputatlar Palatasının sədri Radek Vondraçek Azərbaycana səfərindən məmnunluğunu bildirib. Ölkəmizin Çexiyanın ənənəvi tərəfdaşı olduğunu qeyd edən R.Vondraçek ölkəsinin Azərbaycanla əlaqələrin inkişafında, qarşılıqlı iqtisadi-ticarət, maliyyə və digər sahələrdə əlaqələrin genişləndirilməsində maraqlı olduğunu, ölkələrimiz arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialı diqqətə çatdırıb.

Sonra AZPROMO-nun əməkdaşı Zöhrab Qədirov və Çexiya Sənayeçilər İttifaqının prezidenti Yaroslav Qanak müvafiq olaraq Azərbaycan və Çexiyanın biznes və investisiya imkanlarına, Çexiyanın Ticarət-Sənaye Palatasının MDB ölkələri üzrə rəhbəri Frantişek Masopust çex şirkətləri ilə əməkdaşlıq potensialına, Çexiya Sənayeçilər İttifaqının meneceri Tomaş Qodaç isə çex sənaye şirkətlərinin fəaliyyət istiqamətlərinə dair təqdimatlarla çıxış ediblər.

Biznes forum çərçivəsində iş adamları arasında ikitərəfli görüşlər keçirilib, işgüzar əlaqələrin genişləndirilməsi imkanları müzakirə olunub.

# Daha 32 pillə irəlidə

*Əvvəli 1-ci səh.*

İndi icazəverən orqan tərəfindən təqdim edilmiş sənədlərin yoxlanılmasına 2, tikinti layihəsinin şəhərsalma sənədlərinə uyğunluğu barədə komitə tərəfindən rəy verilməsinə 5, ümumilikdə tikintiyə icazə almaq üçün isə 1 iş günü kifayət edir. Beləliklə, islahatlardan sonra tikinti aparmağa icazə almaq üçün prosedurların sayı 18-dən 7-yə, günlərin sayı 116-dan 38-ə, çəkilən xərcin məbləği 6566 manatdan 1595-ə endirilmişdir.

*Elektrik təchizatı şəbəkələrinə qoşulma* ("Doing Business" üzrə bal 77,27) sahəsində həyata keçirilən yeniliklər də yalnız istehlakçıların xeyrinədir. Bu islahatlar sahəsində sözügedən sahə üzrə prosedurların sayı 7-dən 2-yə, həmin işə sərf olunan günlərin sayı 41-dən 20-yə düşmüşdür. Nəticədə sahibkarların şəbəkəyə qoşulmaq üçün müraciət imkanları artmışdır. İndi onlar şəbəkəyə qoşulmaq üçün "ASAN Kommunal" mərkəzləri ilə yanaşı, "KOB evləri"nə də müraciət edə bilərlər. Bundan əlavə, elektrik təchizatı şəbəkələrinə daha da təkmilləşdirilmiş elektron müraciət əsasında qoşulmaq mümkündür. Həmin sahədə həyata keçirilən islahatların bir xeyri də şəbəkələrin sahibkarlarla təmasının minimuma endirilməsidir.

*Əmlakın qeydiyyatı* ("Doing Business" üzrə bal 84,63) üzrə də Azərbaycanın 190 ölkə sırasında 17-ci olması mütərəqqi yeniliklərdən xəbər verir. Əgər əvvəllər bu iş üçün Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətindən (DƏDRX) "Yüklülük (Məhdudiyyət)" haqqında arayış tələb olunurdusa, indi yalnız notariusa müraciət etmək kifayətdir. Notarius özü onlayn qaydada DƏDRX-dən həmin arayışı əldə edə bilir. Yaxud, əvvəl alqı-satqı aktı bağlanırdısa, hazırda alqı-satqı əsasında əmlak üzərində alıcının hüququ dərhal dövlət qeydiyyatına götürülür və ona onlayn qaydada elektron çıxarış göndərilir ki, bu da kağız çıxarışın ləğv olunması deməkdir. Ən nəhayət, indi əmlakın qeydiyyatı üçün prosedurların sayı 3-dən, günlərin sayı isə 5,5-dən 1-ə düşmüşdür. Bütün bu işlərlə bağlı xidmətlər isə "Əmlak Xidmətləri Məkanı"nda aparılır.

*Kreditlərin alınması* ("Doing Business" üzrə bal 80) sahəsində də Azərbaycan kifayət qədər önə keçmişdir. Ölkəmizin layiq görüldüyü 22-ci yer bu sahədə aparılan real islahatların obyektiv göstəricisidir. Məhz bu islahatlar sayəsində ölkəmiz üzrə hüquqi norma indeksi 8-dən 12-yə, kredit bürosunun və kredit reyestrinin əhatə dairələrinin hər biri 41,5 faizdən müvafiq olaraq 45 və 42,13 faizə yüksəlmişdir.

Azərbaycanın "Doing Business"də layiq görüldüyü ən yüksək pillə - 2-ci yer və 81,67 bal *kiçik investorların maraqlarının qorunması* sahəsi üzrədir ki, bunu da təsadüfi hesab etmək olmaz. İcmalda bildirilir ki, bu sahədə aparılan islahatlardan sonra səhmdarlar həyata keçirilən əməliyyatlar nəticəsində vurulan zərərə görə maraqlı direktoru, eləcə də digər direktorları məsuliyyətə cəlb edə bilirlər. Bundan əlavə, səhmdarın uğurlu iddiası nəticəsində məhkəmənin əməliyyatı (əqdi) ləğv edə bilmək imkanı var. Sözügedən sahədə digər müsbət hal məhdud məsuliyyətli cəmiyyətin aktivlərinin 51 faizinin satıldığı zaman MMC-nin iştirakçılarının razılığının tələb olunmasıdır. MMC-nin 50 faiz iştirak payını alan alıcı tərəfindən isə digər səhmdarlar üçün tender elan edilməlidir. Bütün bu sahələr üzrə göstəricilər hesabatın əhatə etdiyi dövr ərzində xeyli yüksəlmişdir.

*Vergilərin ödənilməsi* sahəsində ("Doing Business" üzrə bal 85,23) də Azərbaycanın layiq görüldüyü yer - 28-ci pillə kifayət qədər yüksək hesab edilməlidir. Bunun bir çox səbəbləri var. Həmin səbəblər sırasında işəgötürən tərəfindən ödənilən sosial sığorta haqqının dərəcəsinin 22 faizdən 15 faizə endirilməsini, ƏDV-nin qaytarılması ilə bağlı vergi orqanlarına təqdim olunmalı ərizənin elektronlaşdırılmasını, vergi ödəyiciləri üçün əvəzləşdirilən vergi məbləğinin hesabat dövrü ərzində hesablanmış rəqəmdən artıq olan hissəsinin vergi ödəyicisinin vergi və gömrük orqanlarına elektron formada ərizəni verdiyi vaxtdan 4 aydan gec olmayaraq qaytarılmasını, eləcə də ƏDV-nin 3 ay ərzində geri qaytarılması müddətinin aradan qaldırılmasını göstərmək mümkündür. Bunlardan əlavə, əgər əvvəllər sosial sığorta ödənişləri, mənfəət vergisi və ƏDV-ni ödəmək üçün cəmi 159 saat vaxt tələb edilirdisə, indi həmin rəqəm 113 saata enmişdir. Eyni zamanda sosial sığorta ödənişlərinin mənfəətdəki xüsusi çəkisinin azalması da qeyd olunmalıdır. İndi həmin rəqəm 24,82 deyil, 20,29 faizdir.

"Doing Business" üzrə balı 77,04 olan və reytinq cədvəlində 84-cü pillədə duran *sərhəddə ticarət* sahəsi üzrə də ölkəmizdə ciddi islahatlar aparılmışdır. Həmin islahatlar sayəsində xarici ticarət təşkilatları üçün daha əlverişli biznes mühiti formalaşmış, gömrük nəzarəti və rəsmiləşdirilməsinin daha operativ, şəffaf tətbiq olunması ilə fiziki gömrük yoxlamaları minimuma enmiş, biznesin dövlət tənzimləmə mexanizminin səmərəliliyi artmış, mövcud resurslardan daha optimal istifadə təmin edilmişdir.

*Müqavilələrin icrasının təmin edilməsi* ("Doing Business" üzrə bal 67,51) sahəsində də Azərbaycan xeyli təcrübə toplamışdır. Məhz bu təcrübə hesabına reytinq cədvəlində 40-cı olan ölkəmizdə kiçik iddiaların meyarları və kiçik iddialara münasibətdə sadələşdirilmiş prosedur qanunvericilikdə təsdiq edilmiş, məhkəmə prosedurlarının tənzimlənməsi standartları daha da təkmilləşdirilmiş, "Mediasiya haqqında" normativ hüquqi baza yaradılmış və inzibatçılıq qaydaları tətbiq olunmuş, eləcə də digər tədbirlər həyata keçirilmişdir.

Reytinq cədvəlində 45-ci olduğumuz *müflisləşmənin həllinə* ("Doing Business" üzrə bal 63,79) gəldikdə, bu sahədə də islahatların nəticələri (ipoteka predmetinin həm hərracda, həm də elektron qaydada keçirilən açıq bazarda satılması, ipoteka predmetinə tutmanın yönəldilməsi hüququ ilə bağlı ipoteka üzrə öhdəliyin icrasının ümumi deyil, konkret müddətə - 60 təqvim günü və daha çox gecikdirilməsinin qanunvericilikdə təsbit olunması, ipoteka predmetinə tutmanın yönəldilməsi üzrə mexanizmlərin konkretləşdirilməsi və qeyri-müəyyənliklərin aradan qaldırılması, eləcə də təkrar hərracın keçirilmə müddətinin 45 gündən 20 günə endirilməsi və s.) xüsusi vurğulanmalıdır.

Bəlkə də kimlər üçün bir az quru, bir az da anlaşılmaz təsir bağışlayan icmalda əksini tapan bu tədbirlər əslində Azərbaycanın hədəf kimi seçdiyi məqsədlərə çatmaq üçün atılan növbəti addımlardır. O addımların səmərəsini, xeyrini az və ya çox dərəcədə hamı görür və yaşayır, hətta onu etiraf etmək istəməyənlər də. Amma bu qısqanclığın mahiyyətə dəxli varmı?! Xüsusən də həmin mahiyyəti Dünya Bankı kimi nüfuzlu və nəhəng maliyyə qurumu qiymətləndirirsə...

***Raqif MƏMMƏDLİ,***
***"Azərbaycan"***

Made in Azerbaijan

# Azərbaycanda elektrobus və taxılyığan kombayn istehsal olunacaq

## Gəncə Avtomobil Zavodunun fəaliyyəti yeni keyfiyyət mərhələsinə qədəm qoyur





2004-cü ilin dekabrında işə salınan Gəncə Avtomobil Zavodunun tarixində əlamətdar hadisələr çoxdur. Azərbaycanda qeyri-neft sənayesinin inkişafının bariz nümunəsi olan, yerləşdiyi bölgənin sosial-iqtisadi həyatında böyük rol oynayan zavodun fəaliyyəti bütövlükdə ölkə iqtisadiyyatına böyük töhfələr verir.





Bu baxımdan ötən 15 ildə zavodda işə salınan hər bir yeni yığım xətti, istehsal olunan avtomobillərin çeşidlərinin sürətlə artması əlamətdar hadisələr kimi müəssisənin tarixinə yazılıb.

May ayının 14-də isə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin tarixində növbəti mühüm və tarixi hadisə baş verdi. Həmin gün zavodda iki yeni yığım xəttinin açılışı oldu və ilk dəfə olaraq "E-321" markalı elektrobus və "PALESSE KZS-575" markalı taxılyığan kombayn konveyerdən çıxdı. Beləliklə, indiyədək əsasən müxtəlif model traktorlar, "KamAZ" və MAZ markalı avtomobillər istehsal edən zavodda bundan sonra həm də elektrobus və taxılyığan kombayn buraxılacaq.

Bununla bağlı keçirilən mərasimdə Belarusun Baş nazirinin müavini İqor Lyaşenko, sənaye nazirinin müavini Dmitri Korçik, "Qomselmaş" ASC-nin baş direktoru Aleksandr Novikov, Belarusun ölkəmizdəki səfiri Gennadi Axramoviç, Gəncə şəhər rəhbərliyi, "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyi Müşahidə Şurasının sədri, Milli Məclisin deputatı Xanlar Fətiyev və digər qonaqlar iştirak edib. Mərasimdə Belarusun Baş nazirinin müavini İqor Lyaşenko Azərbaycan və Belarus arasında bütün sahələrdə, xüsusən də sənayenin maşınqayırma sahəsində qurulmuş əlaqələrin uğurlu nəticələrindən danışıb. İqor Lyaşenko bu əlaqələrin inkişafında hər iki ölkə prezidentlərinin ümumi səyinə diqqət çəkib, iki dövlət arasında qurulmuş iqtisadi əlaqələrin inkişafında Gəncə Avtomobil Zavodunun əhəmiyyətini yüksək qiymətləndirib. O, əlaqələrin bundan sonra daha da inkişaf etdirilməsinə inamını ifadə edib.

Xatırladaq ki, fəaliyyətə başladığı ilk illərdə Gəncə Avtomobil Zavodunda Rusiyanın "OKA" və "UAZ", Çinin "Can Qan" markalı avtomobillərinin müxtəlif modelləri yığılıb. Belarusla genişlənən əlaqələr isə 2006-cı ildən zavodun fəaliyyətində yeni mərhələ açıb. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyevin 2006-cı ilin oktyabrında Belarusa səfəri zamanı bu ölkənin traktor və avtomobil zavodları ilə Gəncə Avtomobil Zavodu arasında əməkdaşlığın yaradılması barədə Belarusun dövlət başçısı ilə razılığa gəlindi. Bu razılığa əsasən Gəncə zavodu həmin müəssisələrlə uzunmüddətli əməkdaşlıq müqaviləsi bağladı. Bundan sonra Gəncə Avtomobil Zavodunda yeni texnoloji yığım xətləri quraşdırıldı. Yeni sex müasir avadanlıqlar və texnika ilə təchiz olundu. Müqaviləyə uyğun olaraq 2007-ci ilin mart ayında Belarusdan daxil olan komplektləşdiricilərin əsasında "Belarus 80.1", "Belarus 82.1", "Belarus 1221", "Belarus 1025", "Belarus 892" və "Belarus 80X" modeldə traktorların istehsalına başlanıldı. Həmin ilin aprel ayından isə MAZ avtomobillərinin yığımı təşkil olundu.

2018-ci il aprelin 2-də müəssisədə 10 mininci traktor istehsal edildi. Bununla əlaqədar keçirilən tədbirdə Belarus Respublikası Baş nazirinin müavini Vladimir Semaşko, Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, Minsk traktor və avtomobil zavodlarının baş direktorları iştirak ediblər. Qonaqlar zavodun fəaliyyətini yüksək qiymətləndirib, texniki və kadr potensialında perspektivlərdən söz açıblar.

Zavodda ilk dəfə olaraq elektrobus və taxılyığan kombaynın konveyerdən çıxması münasibətilə keçirilən mərasimdə indiyədək görülmüş işlər barədə danışan "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyi Müşahidə Şurasının sədri Xanlar Fətiyev bildirib ki, bu günədək müəssisədə ümumilikdə 11 modeldə 10549 traktor, 143 xüsusi təyinatlı traktor yığılaraq təhvil verilib. Bu texnikalardan 9825-i dövlət sifarişi əsasında "Aqrolizinq" ASC-yə, 724-ü isə fermerlərə və iş adamlarına satılıb. 2019-cu ilin 4 ayı ərzində Gəncə Avtomobil Zavodunda 478 texnika istehsal olunub. Bunlardan 469-u müxtəlif model traktorlar, 1-i MAZ markalı qoşqulu avtomobil, 1-i "KamAZ" markalı avtomobil, 2-si MAZ markalı avtobus, 5-i özüboşaldan traktor qoşqusudur. 2019-cu ilin aprel ayının sonuna qədər "Gəncə Avtomobil Zavodu" İB-də 8 modeldə, müxtəlif modifikasiyalarda 2864 ədəd MAZ avtomobili istehsal edilərək təyinatı üzrə təhvil verilib. Bu avtomobillərin yığımının 30-40 faizini yerli istehsal təşkil edib. Aprelin 30-dək müəssisədə 330 MAZ qoşqusu və 3202 asma avadanlıq istehsal olunub. Bu müddətədək "Gəncə Avtomobil Zavodu" İB-də, ümumilikdə, 208 ədəd "KamAZ" markalı yük avtomobili və 411 ədəd "URAL" avtomobili istehsal edilib.

2019-cu ildə Gəncə Avtomobil Zavodunun fəaliyyətində yeni keyfiyyət dəyişikliklərinin baş verəcəyi gözlənilən idi. Bunu hələ yanvar ayında Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovun və Milli Məclisin deputatı, Gəncə Avtomobil Zavodu Müşahidə Şurasının sədri Xanlar Fətiyevin Belarusa səfərləri və keçirdikləri görüşlər də təsdiq edirdi. Həmin səfər zamanı Belarus müəssisələrində istehsal olunan nəqliyyat vasitələrinin, kənd təsərrüfatı texnikalarının Azərbaycanda birgə istehsalı barədə müzakirələr aparılıb, səmərəli görüşlər keçirilib.

Müzakirə olunan məsələlərdən biri də birgə elektrik avtobuslarının və taxılyığan kombaynların istehsalı olub. "Belkommunmaş" ASC-nin məhsulu olan elektrik avtobuslarının və "Qomselmaş" ASC-nin buraxdığı taxılyığan kombaynların birgə istehsalı Belarus nümayəndələri ilə görüşdə ətraflı müzakirə olunub. Qeyd edilib ki, Gəncə Avtomobil Zavodu investisiya layihələrinin reallaşdırılması üçün əlverişli regiondur. O cümlədən elektrik avtobuslarının və taxılyığan kombaynların da Gəncədə istehsalı həyata keçirilə bilər. Xatırladaq ki, "Qomselmaş" ASC-nin istehsal etdiyi kombaynlar Azərbaycanın kənd təsərrüfatı sahələrində uğurla tətbiq edilib.

Budur, artıq Gəncə Avtomobil Zavodunda elektrik avtobuslarının və taxılyığan kombaynların istehsalı başlayır. Elektrobuslar həm ekoloji, həm də yanacağa qənaət baxımından çox sərfəlidir. 83 sərnişinin daşınmasını reallaşdıra biləcək avtobuslar 26 oturacaqla, kondisionerlə, həmçinin məlumat monitoru və videonəzarət sistemi ilə təmin olunub. 60 kilometr/saat sürətlə hərəkət edə biləcək elektrobusun akkumulyatoru enerjidoldurma stansiyası tərəfindən 6 dəqiqə ərzində tam doldurulur və enerji bərpa olunur. Taxılyığan kombaynın mühərriki isə 114/155 at gücündədir. Taxılbiçənin uzunluğu 4-5 metr arası dəyişir. Taxıl döyümü sistemində üyüdən aparatın tipi barabanlı, barabanın fırlanma tezliyi isə 510-875 dövr/dəqiqədir. Kombaynların hərəkət sürəti 20 kilometr/saatdır. "Gəncə Avtomobil Zavodu" İB il ərzində 150 elektrobus, 120 kombayn yığmaq gücünə malikdir.

Xanlar Fətiyevin sözlərinə görə, Gəncə Avtomobil Zavodunun işə salınması Prezident İlham Əliyevin qeyri-neft sektorunun inkişafı ilə bağlı yürütdüyü siyasətin bariz nümunəsidir. Fəaliyyətə başladığı ötən 15 ildə zavodun fəaliyyəti dövlət başçısı tərəfindən yüksək qiymətləndirilib, ayrı-ayrı vaxtlarda bu müəssisənin işçilərini "Tərəqqi" medalı, "Əməkdar mühəndis" fəxri adı ilə təltif edib. Bu mənada ötən 15 ildə qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirən müəssisə Azərbaycan avtomobil sənayesinin flaqmanlarından birinə çevrilib. Ən əsası isə bu zavod Azərbaycanda sənayeləşmə istiqamətində həyata keçirilən dövlət siyasətinin uğurlu bəhrəsidir.

Eyni zamanda Gəncə Avtomobil Zavodu sənaye sahəsində Belarus-Azərbaycan uğurlu əməkdaşlığının real təsdiqidir. Məhz Prezident İlham Əliyevin səyi ilə Belarus müəssisələri ilə faydalı və səmərəli əməkdaşlıq əlaqələri yaradılaraq inkişaf etdirilir. Artıq 13 ildir bu zavod traktor, avtomobil, kommunal texnika və xüsusi texnikanın yığılması əməliyyatlarının həyata keçirilməsində Belarusun aparıcı müəssisələri ilə fəal əməkdaşlıq edir. Bu ildən elektrik avtobuslarının və taxılyığan kombaynların istehsalına başlanılması isə Belarus müəssisələri ilə əməkdaşlığın yüksələn xətlə davam etdiyini göstərir.

Bu gün Gəncə Avtomobil Zavodu həqiqətən özünün inkişaf dövrünü yaşayır. Daim dövlətimizin və onun rəhbərinin diqqət və qayğısını hiss edən kollektiv istehsal sahələrini genişləndirməklə həm ölkəmizin maşın və mexanizmlərə olan ehtiyacını ödəyir, həm də yeni iş yerləri açmaqla əhalinin məşğulluğunu təmin edir. Ən əsası, Gəncə Avtomobil Zavodu müasir, keyfiyyətli və sərfəli nəqliyyat, kənd təsərrüfatı və yük avtomobilləri ilə bundan sonra həm daxili tələbatı uğurla ödəyəcək, həm də ixracata böyük töhfələr verəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***



# Azərbaycan səhiyyəsi inkişafında yeni mərhələyə keçəcək

## 2020-ci il yanvarın 1-dən ölkə üzrə icbari tibbi sığorta tətbiq ediləcək

*Əvvəli 1-ci səh.*

Pilot layihə ilk olaraq Mingəçevir şəhəri və Yevlax rayonunun ərazilərini əhatə etmişdir. Ötən ildən Ağdaş rayonunun ərazisində də pilot layihə tətbiq edilmişdir. Layihənin icrası zamanı əhalisi 340 min nəfər təşkil edən ərazilərdə sığorta olunanlar və 30 minə yaxın məcburi köçkün ödənişsiz tibbi xidmətlərlə təmin edilmişdir. Tibb müəssisələrinin fəaliyyətində məhsuldarlıq artırılmışdır. Xidmətin keyfiyyət göstəricisi yüksəlmiş, nəticədə ötən il pilot ərazilərdə ambulator-poliklinikalara gələnlərin sayı 1,1 milyon olmuşdur. Evə yazılan xəstələrin sayı 2016-cı illə müqayisədə 11 faizə çatmışdır. İcbari tibbi sığortanın tətbiqi nəticəsində pilot ərazilərdə anadangəlmə ürək qüsuru ilə doğulan 37 uşaq əməliyyat olunub, onlar əlillikdən xilas edilərək öz sağlamlıqlarına qovuşublar.

Pilot layihənin icrası zamanı rayon xəstəxanalarında əvvəllər aparılması mümkün olmayan müəyyən cərrahi əməliyyatlar həyata keçirilmişdir. Bəzi tibb işçilərinin təcrübəsinin artırılması məqsədilə onlar xarici ölkələrdə təlim və təcrübə proqramlarına göndərilmişlər. Ölkədə ilkin səhiyyə xidmətinin təkmilləşdirilməsi məqsədilə ailə sağlamlıq mərkəzləri yaradılmışdır.

Pilot ərazilərdə fəaliyyət göstərən həkimlərin əməkhaqları artmışdır. Belə ki, həkimlərin orta aylıq maaşı 2018-ci ildə ölkə üzrə orta aylıq əməkhaqqının 1,9 mislini təşkil etmişdir. Bununla yanaşı, 2018-ci ildə icbari tibbi sığortanın vəsaitlərinə qənaət edilməsi məqsədilə pilot ərazilərdəki xəstəxanalarda idarəetmə müasirləşdirilmiş, texniki baza yaxşılaşdırılmış, tibb müəssisələri tam elektronlaşdırılmışdır.

Bunun nəticəsidir ki, icbari tibbi sığortanın tətbiq olunmasını Mingəçevir şəhərində əhalinin 88 faizi, Yevlaxda 79 faizi, Ağdaşda isə 86 faizi dəstəkləmişdir. Ekspertlərin fikrincə, pilot layihənin ikiillik nəticələrinə görə, ölkəmiz icbari tibbi sığortanın tətbiqi və sonrakı inkişafı üçün lazımi şəraitə və imkanlara malikdir. İcbari tibbi sığorta sahəsində görülmüş işlərin davamı olaraq 2020-ci il yanvarın 1-dən qüvvəyə minəcək "Tibbi sığorta haqqında" qanunda bütün əhaliyə təcili və təxirəsalınmaz tibbi yardım, habelə ilkin səhiyyə xidməti üçün sığorta haqlarının dövlət büdcəsi tərəfindən ödənilməsi nəzərdə tutulmuşdur. Məmnunluq doğuran odur ki, ölkə əhalisinin 45 faizini təşkil edən işləməyənlər də bu qayğıdan bəhrələnə biləcəklər. Məsələn, uşaqlar, tələbələr, pensiyaçılar, sosial müavinət və ünvanlı sosial yardım alan şəxslər, hamilə və sosial məzuniyyətdə olan qadınlar üçün sığorta haqqı dövlət büdcəsi tərəfindən ödəniləcək. "Tibbi sığorta haqqında" qanuna edilmiş dəyişikliklərin 2020-ci ildə qüvvəyə minməsi ilə əlaqədar 2019-cu il üzrə görüləcək işlərə dair tədbirlər planı hazırlanmışdır.

Əsas məsələ, Prezidentin vurğuladığı kimi, tibbi xidmətin hər kəs üçün əlçatanlığını təmin etməkdir. Bütün bunlar həm də dövlət başçısı tərəfindən əhaliyə göstərilən yüksək qayğının bariz nümunəsidir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Prezident İlham Əliyevin tapşırığına əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Prezident İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin həllinə kömək göstərirlər.

Növbəti belə qəbulu səhiyyə naziri Oqtay Şirəliyev mayın 16-da İsmayıllı Mərkəzi Rayon Xəstəxanasında keçirib.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, qəbul zamanı nazir Oqtay Şirəliyev İsmayıllı, Göyçay, Qəbələ, Şamaxı, Qobustandan olan vətəndaşların sağlamlıq problemləri, işlə təminatı və s. məsələlərlə bağlı müraciətlərini dinləyib.

Vətəndaş müraciətlərində qaldırılan məsələlər nazirliyin müvafiq qurumlarının əməkdaşlarının iştirakı ilə araşdırılıb. Müraciətlərin bəziləri yerindəcə həllini tapıb.

Nazirliyin səlahiyyətlərinə aid olmayan məsələlər aidiyyəti üzrə çatdırılması üçün qeydiyyata alınaraq nəzarətə götürülüb.

* * *

Mayın 16-da Ədliyyə naziri Fikrət Məmmədov Lənkəran şəhərində, nazir müavinləri Toğrul Musayev Lerik, Vilayət Zahirov Astara rayonlarında vətəndaşların qəbulunu keçiriblər.

Qəbullar zamanı ədliyyə fəaliyyəti ilə bağlı müraciətlərə baxılıb, hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerində öz həllini tapıb, digər müraciətlər üzrə nazirliyin qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

* * *

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) rəhbərliyi şimal bölgəsindən olan vətəndaşların müraciətlərini dinləyib.

Xidmət rəisi, general-leytenant Arzu Rəhimov mayın 16-da Qubadakı Heydər Əliyev Mərkəzində Quba və Qusar rayonlarından olan vətəndaşları qəbul edib.

Tədbirdə hər bir vətəndaşın müraciət və təklifi diqqətlə dinlənilib. Müraciətlər əsasən həqiqi hərbi xidmətə və ya işə qəbul, övladlarının gələcək müddətli həqiqi hərbi xidmət yerinin müəyyənləşdirilməsi, veteran adının və vəsiqəsinin verilməsi, eləcə də digər məsələlərlə bağlı olub.

Qəbulda bir çox müraciətlər yerindəcə həll olunub. Araşdırılmasına ehtiyac olan məsələlər qeydiyyata alınıb və onların həlli üçün konkret tapşırıqlar verilib. Xidmətin səlahiyyətlərinə aid olmayan müraciətlər isə aidiyyəti orqanlara çatdırılması üçün qeydiyyata alınıb. Eyni zamanda, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəis müavinləri general-mayor Mayıl Şahverdiyev Xaçmazda (Xaçmaz və Şabran sakinləri üçün), general-mayor Yusif Mirzəyev isə Siyəzəndə (Siyəzən və Xızı sakinləri üçün) vətəndaşların müraciətlərini dinləyiblər.

Vətəndaşlar bölgə sakinlərinin yerindəcə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını bildirərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

***AZƏRTAC***

# REGİONLAR



# Aqroparklar ümidləri doğruldur



Bu gün ölkənin bütün bölgələrində sosial-iqtisadi inkişafın nəticələri hiss olunur. Real vəziyyət regionlardan asılı olaraq fərqli formalarda özünü büruzə verir. Bununla belə, elə bir rayon və şəhər yoxdur ki, orada infrastruktur layihələri icra olunmasın, yeni sahibkarlıq subyektləri yaradılmasın.

Aqrar sektorda son illər aparılan islahatlar, bu sahəyə ayrılan diqqət isə nəticəsiz qalmır: məhsul istehsalı artır, kənd adamının güzəranı yaxşılaşır, ölkənin ixrac potensialı genişlənir.

Şamaxı Rayon İcra Hakimiyyətinin Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Sərdar Ömərov deyir ki, rayonda dəmyə sahələrinin üstünlük təşkil etməsinə baxmayaraq, göstərilən aqrotexniki qulluq nəticəsində yüksək məhsuldarlığa nail olunur. Azlıq təşkil edən suvarılan torpaqlarda isə üzüm və dənli bitkilər yetişdirilir.



Şamaxıda üzümçülüyün inkişafı məqsədilə rayon icra hakimiyyətinin rəhbərinin dəstəyi ilə genişmiqyaslı fəaliyyət planı icra edilir. Rayon üzrə 1793 hektarda məhsuldar üzüm sortları əkilib. Onların çoxu süfrə sortlarıdır. Amma texniki sortlar da əkilib. Hazırkı bağların 1600 hektardan çoxu məhsuldardır. Bağlarda yüksəkkeyfiyyətli üzüm istehsal edilir. Onu da qeyd edək ki, SSRİ vaxtı Şamaxıda 27 min hektarda üzüm yetişdirilib. 1980-1985-ci illərdə hər il 200-250 min ton üzüm istehsal olunub. Mütəxəssislərin rəyinə görə, bu yerin torpağı üzümçülüyün inkişafı üçün çox əlverişlidir.

Prezidentin tapşırığına əsasən rayonda üzümçülüyün perspektivləri nəzərə alınaraq tinglik təsərrüfatı yaradılıb. Yaxın illərdə təsərrüfatda yetişdirilən tinglər fermerlərə veriləcək.

Eyni zamanda Kənd Təsərrüfatı Nazirliyinin xətti ilə Şamaxıda üzüm tinglərinin calaq emalatxanasının quraşdırılmasına başlanıb. Layihə gücü 500 min ədəd calaq üzüm tingləri olan emalatxanada flokseriya xəstəliyinə davamlı sortlar digər məhsuldar sortlarla calaq ediləcək. Mütəxəssislərin qənaətinə görə, calaqaltı tinglərdə xəstəlik riski az olduğundan ömürləri digərlərindən daha uzundur.

Ümumiyyətlə, hər il rayonda 60-100 hektar aralığında üzüm bağları salınır. Cari ilin payızında isə yeni tinglər hesabına 100-150 hektar sahədə yeni üzümlüklər salınması nəzərdə tutulur.

Üzümçülüyün gəlirli sahə olması nəzərə alınaraq fiziki şəxslər bu sahəyə maraq göstərirlər. Onlar bu sahənin sərfəli olduğunu yaxşı bilirlər. Üstəlik, onu da bilirlər ki, indi istehsal olunan üzümün satışında heç bir problem yoxdur.

Rayonda həmçinin alma, gilas, badam və qoz bağları da salınır və bu sahələrə də maraq ilbəil artır.

Rayonda 54 min hektar yararlı torpaq sahəsi var. Bundan 35 min hektarı vətəndaşların pay, 19 min hektarı isə Nazirlər Kabinetinin qərarı ilə təyinatı dəyişdirilərək əkinçiliyə keçirilmiş dövlət torpaqlarıdır. Bu dövlət torpaqlarında 3 böyük aqropark yaradılıb.

"Aqrodays" MMC-nin balansına 2016-cı ildə 14 min 890 hektar torpaq verilib. 13 min hektar sahədə buğda və arpa əkilib. Qalan hissə isə əkinəyararlı vəziyyətə salınır. "Kürdəmir Süd İstehsalı və Emalı" MMC-yə isə 2700 hektardan çox torpaq sahəsi verilib. Onlar da həmin torpaq sahəsinin 2400 hektarında dənli bitkilər əkiblər. Sahələrdə "pivod" suvarma sisteminin təşkili, lazımi aqrotexniki qulluğun aparılması sayəsində məhsuldarlıq 44-50 sentnerdir. Qalan 300 hektar da əkinə hazırlanır.

"Aqro Fresh" MMC isə yeni yaradılır. Aqropark Hacıqədirli kəndində fəaliyyət göstərəcək. Hazırda müəssisə üçün ayrılmış torpaq sahəsi əkinəyararlı vəziyyətə gətirilir. Bu ilin payızında orada dənli bitkilər əkiləcək. MMC-də eyni zamanda 5 min başlıq heyvandarlıq kompleksi də yaradılacaq. Kompleksdə əsasən xaricdən gətirilmiş yüksək məhsuldarlıqlı cins heyvanlar olacaq.

Yeri gəlmişkən qeyd edək ki, Şamaxıda heyvandarlığa ciddi diqqət yetirilir. Hazırda rayon üzrə 28 min baş qara mal, 126 min baş davar var.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***



Dördüncü ildir ki, Tovuz rayonunda tütün əkini sahələri genişləndirilir, istehsalda yaxşı göstəricilərə nail olunur. Hazırda tütün sahələri əkinə hazırlanır. Yaxın günlərdə şitillərin sahələrə köçürülməsinə başlanacaq.

# Maraq da artıb, istehsal da

Fermerlər deyirlər ki, havalar əlverişli keçsə, əkini 10 gün müddətinə başa çatdıracaqlar. Əl əməyini yüngülləşdirmək üçün yaxın vaxtlarda tütünçülükdə istifadə edilən texnikaların alınması da nəzərdə tutulmuşdur.

Hazırda rayonun 28 kəndində tütün əkilir. Cəlilli, Abulbəyli, Düz Cırdaxan, Alakol, Dönük Qırıqlı və digər kəndlərin sakinləri məhsulun maya dəyərini azaltmaq üçün pay torpaqlarını birləşdirərək birlikdə əkirlər. Məsələn, Aran Yanıqlı kəndində 8 sahibkar torpaqlarını birləşdirərək 10 hektar sahədə tütün əkməyi qərara almışdır. Əvvəllər tütün şitilləri kənardan alınırdısa, indi ayrı-ayrı sahibkarlar tərəfindən rayonda yetişdiriir. Fermer Azad Qurbanov, Tofiq Musayev, Fərhad Məmmədov bir neçə ildir bu işlə məşğul olur, istixanalarda yetişdirdikləri müxtəlif sort tütün şitillərini fermerlərə sataraq xeyli gəlir əldə edirlər.

Cəlilli kəndinin sakinləri də keçən il əldə etdikləri gəlirdən razı qaldıqları üçün bu il daha çox sahədə tütün əkməyi planlaşdırmışlar. Məsələn, kənd sakini Əli İsmayılov keçən il 1,5 hektar sahədə tütün yetişdirib yaxşı qazanc götürdüyü üçün cari ildə 2 hektardan çox sahədə tütün əkməyi qərara almışdır. Başqa bir misal. Keçən il 2 hektar sahədə tütün əkən Düz Cırdaxan kənd sakini Akif Mehdiyev 1,5 hektar sahədən 3 tona yaxın tütün yarpağı təhvil vermişdir.



Aran kəndinin sakinləri Azad Qurbanov və Namiq Həsənov isə keçən ildən etibarən tütün əkməyə başlamışlar. Onların hər biri ildə 3 hektar sahədə tütün əkir. Söhbət zamanı Azad Qurbanov dedi ki, dövlət bizim üçün hər cür şərait yaradıb. İstehsal etdiyimiz məhsul üçün subsidiya verir, rayon rəhbərliyi işimizə dəstək olur, əkindən tutmuş məhsulun təhvil verilməsinədək kömək göstərir.

Rayonda istehsal olunan tütün Şəki "İntertabakko" MMC-yə təhvil verilir. Cəmiyyətin nümayəndələri yarpaq dərimi ərəfəsində əkin sahələrini gəzir, yığım-qurutma prosesinə nəzarət edirlər. Bu da məhsulun keyfiyyətinə yaxşı təsir göstərir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Su təchizatı yaxşılaşır

Son dövrlər Balakəndə də əhalinin içməli və suvarma suyu ilə təminatı yaxşılaşır. Bu məqsədlə su anbarları, magistral və şəhər su xətləri təmir olunur. Rayon mərkəzinin bir çox küçələrində magistral su xətləri dəyişdirilib. Kəndlərdə isə təkcə keçən il 9 artezian quyusu qazılıb, 5 subartezian quyusunda təmir işləri aparılıb. Yaponiyanın ölkəmizdəki səfirliyinin maliyyə dəstəyi ilə Hənifə və Mahamalar kəndlərində 2 artezian quyusu qazılaraq əhalinin istifadəsinə verilib.

Balakən "Sukanal" sahəsinin rəisi Elşad Varşayev bildirdi ki, rayonda 4800 əhali və 210 qeyri-əhali qrupu abonentə xidmət edirlər. Bunlar, əsasən, Balakən şəhəri və ətraf 4 kənddə yaşayan abonentlərdir. İçməli su mənbələri əsasən çaylardır. Bunların arasında mənbəyini Böyük Qafqaz sıra dağlarından götürən Sintik çayı xüsusi qeyd olunmalıdır. Qaraçay və İnbulçay da sakinlərin su təchizatının təmin olunmasında əhəmiyyətli rol oynayır. Bu çayların suları anbarlara doldurulub təmizləndikdən sonra istifadəçilərə verilir.

Müsahibimizin sözlərinə görə, cari ildən rayonda su-kanalizasiya sisteminin yenidən qurulması işləri aparılacaq. Yenidənqurma işləri Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində reallaşdılrılacaq.

Əhaliyə verilən suyun keyfiyyəti, sağlamlıq üçün nə qədər yararlı olması da vacib məqamlardandır. Bununla əlaqədar bütün cəhətlər diqqətdə saxlanılır. "Azərsu" ASC-nin xüsusi ixtisaslı mütəxəssislərinin daxil olduğu səyyar laboratoriyası bu işə dəstək verir. Bundan əlavə, su təchizatında fasiləsizlik təmin olunur. Amma mövsümi dövrlərdə, xüsusən yay aylarında bütün sakinlərin su ilə təminatında növbəlilik sistemi yaradılır.

Hazırda təxminən 800 təsərrüfat və 3 mindən çox sakini olan Sarıbulaq kəndində yeni şəbəkənin qurulması yekunlaşma mərhələsindədir.

***Ə.SƏLİMOV,***
***"Azərbaycan"***








Prezident İlham Əliyevin Tərtərə hər səfəri rayonun sosial-iqtisadi yüksəlişinə, əhalinin həyat şəraitinin daha da yaxşılaşmasına əhəmiyyətli təsir göstərmiş, sakinlərdə sabaha inamı artırmışdır.

# Quruculuq davam edir

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın uğurlu icrası sayəsində Tərtər rayonu əsaslı şəkildə dəyişərək abad diyara çevrilmişdir. Rayonun Qazyan, Borsunlu, Qaradağlı, Hüsənli, Şıxarx kənd 2 və 6 saylı şəhər tam orta, Qazyan, Rəcəbli kənd, ümumi orta məktəb binaları əsaslı təmir olunmuş, Poladlı, Şıxarx və Bayandur kəndlərində modul tipli məktəb binaları istifadəyə verilmişdir. Qapanlı kəndində yeni həkim məntəqəsi tikilmiş, rayon mərkəzi və Bəyimsarov kənd xəstəxanaları əsaslı təmir olunmuşdur.

Tarix-diyarşünaslıq muzeyi, Uşaq-gənclər şahmat məktəbi, YAP rayon təşkilatının binaları, şəhərin Nizami və Elman Səfərov küçələrində hər biri 100 yerlik, Şıxarx qəsəbəsində 280 yerlik müasir tipli körpələr evi-uşaq bağçası, Dövlət Aqrar İnkişaf Mərkəzi, xalça istehsalı emalatxanası, regional qaz istismarı, elektrik şəbəkəsinin, statistika idarəsinin inzibati binası da bu illərdə inşa edilmişdir.

Bunlardan əlavə, Tərtər şəhərində 112 ictimai yaşayış binasının dam örtüyü, fasad və giriş hissəsi əsaslı təmir olunmuş, həyətlərdə abadlıq və quruculuq işləri aparılmış, 48 min kvadratmetrdən çox asfalt örtük salınmışdır. Torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə həlak olmuş Azərbaycanın Milli Qəhrəmanı Vəzir Orucovun, Azərbaycan Bayrağı ordenli Mehrac Məmmədovun, Ədalət Paşayevin, İlqar Həsənovun və Aprel döyüşlərində igidlik göstərmiş Nicat İsgəndərovun adlarına verilmiş küçələrdə barelyefləri vurulmuşdur.

Tərtər şəhərinin içməli su-kanalizasiya sisteminin yenidən qurulması və 21 kəndin içməli su təminatının yaxşılaşdırılması da sakinlərdə böyük razılıq doğurmuşdur.

Rayonda yol infrastrukturunun yaxşılaşdırılması istiqamətində işlər yenə davam etdirilir. Uzunluğu 18 kilometr olan Tərtər-Goranboy, uzunluğu 19 kilometr olan Tərtər-Hindarx, uzunluğu 23.2 kilometr olan Buruc-Güləbatlı-Xoruzlu-Kəbirli-Bayandurlu-Qaradağlı avtomobil yolunun əsaslı təmiri bölgə əhalisinə rahatlıq gətirmişdir.

Dövlət başçısının təşəbbüsü ilə Şıxarx qəsəbəsi ərazisində hər cür infrastruktura malik 1176 məcburi köçkün ailəsi üçün müasir tipli yaşayış məhəlləsi inşa edilmişdir. Şıxarx, Həsənqaya və Çaylı kəndlərində məskunlaşan məcburi köçkünlər üçün isə 78 fərdi yaşayış evi tikilib istifadəyə verilmişdir.

Milli Ordumuzun zəfər salnaməsinə şanlı tarix kimi yazılan Aprel döyüşlərinin yüksək əhvali-ruhiyyə doğurduğu qürurlu günlərdə Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyevanın Tərtərə səfəri də unudulmaz anlarla yaddaşlara həkk olunub. O vaxt Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində Tərtər şəhərində və kəndlərdə bir neçə ev, sosial obyekt artilleriya mərmiləri ilə dağıdılmışdı. Dövlət başçısı yaranmış vəziyyətlə yerində tanış olub zərərçəkənlərlə görüşdükdən sonra 17 yaşayış məntəqəsində 256 yaşayış evinə dəymiş ziyanın aradan qaldırılması üçün vəsaitin ayrılmasına sərəncam imzaladı. Təmir-bərpa işlərinə başlandı və dağılan evlər əvvəlkindən də gözəl və yaraşıqlı görkəm aldı. Bir neçə aydan sonra - 2016-cı il dekabrın 3-də Tərtərə yenidən səfər edən Prezident İlham Əliyev demişdir: "Tərtər rayonunda işlər düzgün qurulub. Mən rayonda dəfələrlə olmuşam. Xüsusilə son vaxtlar burada gedən quruculuq-abadlıq işləri məni çox sevindirir. Əminəm ki, sizi də sevindirir. Keçən dəfə biz may ayında görüşmüşdük. O vaxt mən dağılmış evlərə baş çəkdim və bir daha əmin oldum ki, Tərtər sakinləri qəhrəmandırlar. Onlar burada - döyüş bölgəsində, düşmənlə üz-üzə möhkəm dayanıblar və atılan, evlərinə dəyən mərmilər onların iradəsinə zərrə qədər təsir etməmişdir".

Hazırda rayonda yaz-tarla işlərinin qızğın çağıdır. Bol məhsul yetişdirmək üçün hamı qüvvə və bacarığını sərf edir. Tikinti, abadlıq, quruculuq işləri davam etdirilir. Olimpiya İdman Kompleksi, Bayraq muzeyi, rayon icra hakimiyyəti üçün yeni bina, Sarov-Borsunlu avtomobil yolu tikilir.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# İşçilər də razılıq edir, sifarişçilər də

"Bakı Tikiş Evi" ASC-nin filiallarından biri İsmayıllı rayonunda fəaliyyət göstərir. Burada ən yüksək səviyyədə məhsul istehsal etməyə imkan verən avadanlıqlar Yaponiya, Çin, Rusiya, Almaniya və Türkiyədən gətirilərək quraşdırılıb. Müəssisənin yaradılması qadınlar arasında məşğulluğun artırılmasına mühüm töhfədir.

Filialın rəhbəri Lətifə Əliyeva bununla bağlı dedi ki, 2013-cü ilin martında qadınlara iş yerinin açılması üçün rayon icra hakimiyyətinə müraciət etdik. Təklifimiz müsbət qarşılandı. Aidiyyəti qurumlar qarşısında məsələ qaldırıldı və tezliklə səmərəsini verdi. Təxminən bir ay sonra İsmayıllı Peşə Tədris Mərkəzində dərzilərin hazırlanmasına başlandı. "Bakı Tikiş Evi" ASC-nin rayona ezam etdiyi mütəxəssis 4 ay işçilərə kurs keçdi. Həmin il avqustun 14-də Prezident İlham Əliyevin iştirakı ilə müəssisənin rəsmi açılışı oldu. Hazırda müəssisədə 40 nəfər çalışır.



Müəssisənin sərgi salonunda istehsal olunan məhsullar nümayiş etdirilir. İnzibati otaqlarda hər cür şərait yaradılmışdır. İşçilər ildə iki dəfə respublikamızın görməli yerlərinə səyahətə çıxa bilirlər. Burada mövsümə uyğun müxtəlif növ, o cümlədən məktəbli geyimləri tikilir.

Filial xeyriyyəçiliklə də məşğuldur. Aztəminatlı ailələrin uşaqlarına hər dərs mövsümündə məktəbli geyim dəstləri hədiyyə olunur. Burada şəhər əhalisi ilə yanaşı, Talıstan, Diyallı, Mican, Quşencə kəndlərinin sakinləri də çalışırlar. Mexanik, yüngül sənaye sahəsində 47 illik təcrübəsi olan Vidadi Rəhmanov və usta Mahı Həmzəyeva söhbət zamanı bildirdilər ki, burada hazırlanan məhsulları sifarişçilər yüksək qiymətləndirirlər.

***Ə.XASAYOĞLU,***
***"Azərbaycan"***

# Mədəniyyət

◆ Ömür səhifələri



**...O axşam sonuncu dəfə ailəlikcə süfrə başında əyləşmişdilər. İsmayıl həmişəki kimi masanın başında oturmuş, evin xanımı və övladları da onun ətrafına toplaşıb, dinmədən şam edirdilər. Bu susqunluq fırtınaqabağı sakitliyi xatırladırdı...**

**Həmin gün onu Mərkəzi Komitəyə çağırmışdılar. Mir Cəfər Bağırovdan 50 nəfərlik heyətlə döyüşə getmək göstərişi almışdı. Səhər ertə yola düşəcəkdilər. Xanımı, 4 balası onsuz necə dolanacaqdılar? Nə yeyib-içəcəkdilər? İçindəki təlatümlər İsmayılın üzünə hopmuşdu sanki. Yaman fikirli, qayğılı, tutqun idi. Özünü şən göstərmək istəsə də, alınmırdı ki, alınmırdı. Həyat yoldaşı Kübranın da sifəti avazımışdı. Dili qurumuşdu elə bil, danışmağa söz tapmırdı...**

# Rəqs bağçamızın qızılgülü

*Yeməkdən sonra İsmayıl balalarını başına topladı. Açıq deməsə də, ürəyində onlarla vidalaşdı. Hər birini öpüb qoxladı, bağrına basdı. 2 yaşlı sonbeşiyini qucağına alıb, üzgözündən xeyli öpdü, ətrini içinə çəkdi. Körpəni yerində donub qalan xanımının qucağına verib, ilkini - Rozanı yanında oturtdu. Saçlarını sığallayıb, alnından öpdü və dedi:*

*- Nə olursa-olsun xoreoqrafiya məktəbini atma. Sən səhnəmizin ən məşhur rəqqasəsi, balerinası olacaqsan. Bu saat mən səni səhnədə dəniz üzərində qanad çalan qağayı kimi təsəvvür edirəm. Səni necə alqışlayırlar, gül-çiçəklərə qərq edirlər...*

*Rozanın gözlərindən gilə-gilə yaş tökülməyə başladı. Qəhərdən boğuldu. Demək istədiyi sözlər boğazında düyünlənib ilişdi. Ancaq ürəyində and içdi ki, atasının bu arzusunu mütləq həyata keçirəcək.*

*O gecə 36 yaşlı professor İsmayıl Cəlilovun ailəsi ilə birgə keçirdiyi son gecə oldu...*

*O gecə həm də 13 yaşlı qızın böyük səhnəyə doğru addımlamaq uğrunda əzmlə, inadla çalışacağına and içdiyi gecə oldu. Və illər sonra bu qız yaddaşına əbədi həkk olunmuş atalı son günündə göz yaşları içində verdiyi sözünə, andına əməl etdi. Azərbaycanın məşhur rəqqasəsi, xoreoqraf-baletmeysteri oldu. Elə atasının arzuladığı kimi...*

*Bu gün Azərbaycanın xalq artisti, "Şərəf" və "Şöhrət" ordenli Roza Cəlilovanın 90 yaşı tamam olur. Yubiley günündə görkəmli sənətkarın həyat kitabını "Ömür səhifələri"ndə özü ilə birlikdə vərəqləyirik.*

## Gənc alimin balerina qızı

Roza Cəlilovanın babası Saleh kişi vaxtilə Cənubi Azərbaycandan Gürcüstana - Tiflisə gəlib. Burada Bahar adlı xanımla ailə qurub. Bu nikahdan 1906-cı il mayın 17-də İsmayıl dünyaya gəlib. Fitri istedadı, zəhmətsevərliyi ilə diqqəti cəlb edən İsmayıl gənc yaşlarında Zəngəzur, Gorus bölgəsinə dövlət qulluğuna göndərilir. Şahverdi kəndində Kübra adlı gözəl bir qıza rast gəlir və ilk baxışdan aşiq olur. Ancaq qızın 15 yaşı vardı. 21 yaşlı İsmayılın həddi büluğa çatmamış qızı qaçırması ona problemlər yarada, ən azı işini itirə bilərdi. Lakin gənc kommunist təhlükələri gözə alaraq 15 yaşlı Kübranı qaçırır. Təsadüfdənmi, yoxsa İsmayıla olan xoş münasibətdənmi bu hadisə xata-bəlasız ötüşür. 1929-cu il mayın 17-də isə onların ilk övladı - Roza dünyaya gəlir.

- Mən Qubada doğulmuşam. O vaxt atam Qubanın 1-ci katibi vəzifəsində işləyirdi. Amma nədənsə doğum şəhadətnaməmdə Quba yox, Dəvəçi yazılıb. İki yaşım olanda ailəmiz Bakıya köçüb. O illərdə atam elmi işlə məşğul olurdu. Azərbaycan Neft İnstitutunda dekan işləyirdi. Alimlər evində yaşayırdıq. Ailənin sevimlisi idim. Ata-bala ikimizin də doğum günü eyni gündə idi. Dost-tanış, qohum-əqrəba yığışıb qeyd edirdik. Atam musiqini, xanəndə və aşıqları çox sevirdi, onları dinləməkdən doymazdı. Tez-tez bizim üçün tarda ifa edirdi. Onun incəsənətə olan marağı mənə də keçmişdi. Pianonu, rəqs etməyi sevirdim. Mən rəqs edəndə atamın üzündə güllər açırdı elə bil.

*Roza 1937-ci ildə 132 saylı məktəbin 1-ci sinfinə gedir. 9 yaşı olanda isə atası onu Bakı Xoreoqrafiya məktəbinə, Sara Mirəliyevanın sinfinə yazdırır. Bununla da qızcığazın həyatında yeni yol başlayır. Hər gün səhər dərsə, günortadan sonra Xoreoqrafiya məktəbinə gedir. Divara bərkidilmiş tirdən yapışıb müəllimin göstərdiyi hərəkətləri təkrarlamaq, ayaq barmaqları üstündə düz dayanmaq ilk vaxtlar ona çətin gəlirdi. Ayaq barmaqları günlərlə ağrıyırdı. Lakin bunlara dözürdü. Çünki atası onun balerina olmasını arzulayırdı.*

- 1941-ci ildə müharibə başladı. Gənc professor, elm adamı və 4 uşağı olduğu üçün atamı müharibəyə aparmadılar. Amma 1942-ci ildə Mir Cəfər Bağırovun göstərişi ilə atam 50 nəfərlik dəstə ilə cəbhəyə gedəsi oldu. Onun ilk və son məktubu Kerçdən gəldi. Bir daha ondan səs soraq çıxmadı. İlk döyüşdəcə həlak olmuşdu. Ondan sonra ailəmizin çətin günləri başladı. 4 uşaq başsız qaldıq. Bütün yük anamın çiyinlərinə düşdü. Fikirdən saralıb-solmuşdu anam. Ailəni qənaətlə dolandırırdı. Yadımdadı, hər səhər mənə 6 qəpik yol pulu verirdi. İki yaşlı körpəyə görə pulsuz bir ağ çörək və bulka alırdıq. Bulkanı sonbeşiyə saxlayırdı. Ağ çörəyi mağazaya aparıb, qara çörəklə dəyişirdim. 400 qramlıq ağ çörəyin əvəzinə 1 kq 600 qramlıq qara çörək götürürdüm. Çox çətin günlər idi. Axırda anam Azərbaycan KP Mərkəzi Komitəsi Təbliğat-təşviqat şöbəsinin müdiri olan yazıçı Süleyman Rəhimova müraciət etdi. Anamı komitənin şöbə müdirlərinə xidmət edən bufetdə işə götürdülər. Bir müddət sonra atamın ölümünə görə bizə müəyyən məbləğdə pul verdilər və uşaqlara 18 yaşına qədər təqaüd kəsdilər. Bundan başqa, Xoreoqrafiya məktəbində oxuyan uşaqları həvəsləndirmək üçün ayda 62 manat təqaüd və səhər yeməyi verilirdi. Beləcə dolanırdıq birtəhər...

## "Bala ceyran"ın "Qaragöz"ü

1943-cü lidə, müharibənin qızğın dövründə respublikada uşaq və gənclərin olimpiadası keçirilirdi. Komissiya üzvləri orta məktəblərə gedir, olimpiadaya qatılmaq üçün istedadlı uşaqları seçirdilər. 132 saylı məktəbə gələn komissiyanın tərkibində məşhur rəqqaslar Əlibaba Abdullayev və Əminə Dilbazi də vardı. 6-cı sinif şagirdi Rozanın rəqsi peşəkarların diqqətini cəlb edir. Əlibaba Abdullayev ona "Bala ceyran" rəqsini olimpiadada oynamağı təklif edir. Davamlı məşqlərdən sonra rəqs hazır olur. Və Roza Cəlilova olimpiadada 1-ci yeri tutur. Rəqqasə kimi ilk uğurunu qazanır. Bununla da Rozanın içində milli rəqslərə sevgi, rəğbət yaranır.

Roza Cəlilova 1947-ci ildə Bakı Xoreqorafiya məktəbini bitirir, təyinatını Opera və Balet Teatrına verirlər. İki il teatrın balet truppasında balerina işləyir. Ancaq xalq rəqslərimiz maqnit kimi onu özünə çəkirdi. Anasının israrına, etirazına baxmayaraq, nəhayət, teatrdan getmək qərarı verir.

- 1949-cu ilin əvvəli idi. Teatrdan çıxıb filarmoniyaya getdim. Dövlət Mahnı və Rəqs Ansamblında işləmək istəyirdim. Mənə yer olmadığını dedilər. Nazirlər Kabinetinin İncəsənət işləri üzrə idarəsinin rəisi Hökumə Sultanovanın qəbuluna getdim. Kağız parçasında diləkçə yazıb verdi. Ansamblda da "yerimiz yoxdur" dedilər. Təkrar Hökumə xanımın yanına getdim. Ansamblın bədii rəhbəri Qılman Salahova zəng vurub dedi ki, "yer yoxdursa, rəqqasələrdən birini çıxarıb bunu götürün. Axı bu qız peşəkardır". Təbii ki, işdən heç kimi çıxarmadılar. Məni də ansambla işə götürdülər.

Beləliklə, 1949-cu ildə Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblında rəqqasə kimi fəaliyyətə başlayır. Azərbaycan xalq rəqslərinin akademik bazasının ilk ifaçısı olur. Tezliklə kollektivə isinişir, istedadı üzə çıxır. İllər öncə "Bala ceyran" rəqsini hazırlayan Əlibaba Abdullayev bu dəfə Üzeyir Hacıbəylinin "Qaragöz" mahnısı əsasında Rozanın solo ifaçılığı ilə musiqili proqram hazırlamağı təklif edir. Davamlı məşqlərdən sonra "Qaragöz"ün səhnə variantı hazır olur. Roza ansamblın növbəti konsertində "Qaragöz"lə səhnəyə çıxır və tamaşaçıların məhəbbətini qazanır. Sonra "Bənövşə", istedadlı rəqqas Böyükağa Məmmədovla "Naz eləmə" rəqslərini böyük məharətlə ifa edir.

## "Mir Cəfər Bağırovla küçədə rastlaşırdım..."

*1951-ci ilin avqustunda Berlində 105 ölkənin iştirakı ilə İİİ Ümumdünya Tələbə və Gənclər Festivalı keçirilirdi. Sovet hökumətini təmsil edən sənət adamlarının siyahısında Roza Cəlilovanın və Böyükağa Məmmədovun da adı vardı. Roza xanım o günləri belə xatırlayır:*

- O vaxtlar sənət adamlarına ciddi nəzarət vardı. Berlindəki festivala hazırlaşanda düz bir il ərzində üç aydan bir Moskvada bizi yoxladılar, görsünlər kökəlib-arıqlamamışıq, zədə almamışıq ki. Festivalda milli geyim geyinmişdim. Başıma da milli geyimi tamamlayan tac qoymuşdum. Tacı rəqs qrupunun rəhbəri Əminə Dilbazi kinostudiyadan götürmüşdü. 6 min manat dəyəri olan o tacı "Fətəli xan" filmində Tutubikə rolunun ifaçısı Leyla Bədirbəyli başına qoymuşdu. Mən "Bənövşə", Böyükağa Məmmədovla birlikdə "Naz eləmə" rəqslərini oynadım. Sonuncu qala-konsertə hazırlaşarkən xəbər verdilər ki, səni Moskvaya çağırırlar. Həyəcan keçirdim, qorxdum ki, görəsən neyləmişəm. Nigarançılıq içində Berlindən Moskvaya gəldim. Sən demə, boşuna narahat olmuşam, məni Albaniyaya qastrola göndərirmişlər.



*1951-ci ilin sentyabrında Albaniyaya yola düşür Roza Cəlilova. Bir ay müddətində müxtəlif şəhərlərdə milli rəqslərimizi böyük ustalıqla nümayiş etdirməklə kifayətlənmir, həm də alban xalq rəqslərinin inceliklərini öyrənir. Bolqarıstan və Rumıniyaya da səfər etdikdən sonra Bakıya qayıdır. O gündən Rozanın sənət yolu açılır. Onu tez-tez müxtəlif konsertlərə, qastrol səfərlərinə göndərirlər. Hətta onu rəqs etmək üçün Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Mir Cəfər Bağırovun təşkil etdiyi banketlərə çağırırlar.*

- Bu banketlərə getmək heç ürəyimcə deyildi. Ancaq Mir Cəfər Bağırovun təşkil etdiyi banketə necə getməyə bilərdim? Banketlərdə oynasam da, heç vaxt Mir Cəfər Bağırovla təmasda olmamışdım. Halbuki küçədə rastlaşırdıq hərdən. O vaxt Mir Cəfər Bağırov indiki İncəsənət muzeyinin binasında, biz isə filarmoniya ilə üzbəüz Alimlər binasında yaşayırdıq. Bağırov əlləri arxasında ağır addımlarla tək-tənha addımlayar, xeyli arxada isə mühafizəçiləri onu izləyərdilər. Biz rastlaşanda çəkinə-çəkinə salam verirdim, o da eynəyinin altından diqqətlə mənə baxıb salamımı alardı.

## İmperatordan qızıl medal...

*Roza Cəlilova sənət zirvəsinə doğru addımlayırdı. Hər şey öz axarı ilə davam edirdi. Amma onun şəxsi həyatı da vardı axı. Bu gözəl rəqqasə ilə ailə qurmaq istəyənlər çox idi. Sadəcə şərt kəsirdilər: "Gərək sənəti atasan". Roza isə bu şərti qəbul etmirdi. Çünki səhnəsiz yaşayacağını, rəqsdən ayrıla biləcəyini heç cür təsəvvür etmirdi. Günlərin birində pərəstişkarlarından biri ona evlənmək təklif edir - şərtsiz. Çox düşünüb-daşındıqdan sonra Roza razılıq verir. 1955-ci ildə evlənirlər. 1956-cı ildə oğulları Zahid dünyaya gəlir. Lakin bu, onun sənətinə mane olmur. Roza Cəlilova Ümumittifaq və Vİ Ümumdünya Tələbə və Gənclər festivalında iştirak etmək üçün Moskvaya gedəndə altı aylıq Zahidi də özü ilə aparmalı olur.*

- Əlbəttə, uşağı anamın yanında da qoya bilərdim, amma yarı canım onun yanında qalacaqdı. Ona görə uşağı özümlə apardım. Mən səhnəyə çıxanda uşağı ansamblın digər üzvləri saxladı. Orda gözlənilməz hadisə də olmuşdu. Deməli, Ramiz Məmmədovla "Naz eləmə" rəqsini oynayırdım. Orda belə bir yer var ki, çökmüş halda rəqs edirəm. Ramiz rəqs edərək qarşıma gələcək, mən də nazlanaraq yerdən qalxacam və üz-üzə oynayıb rəqsi bitirəcəyik. Yerdən qalxmaq istəyəndə belimi sıxan tumanın düyməsinin qırıldığını hiss etdim. Fikirləşdim ki, ayağa qalxsam, tuman sürüşüb düşəcək, hamı da güləcək, biabır olacam. Bir əlimlə tumanı tutaraq oynaya-oynaya səhnədən çıxdım. Ramizə, musiqiçilərə işarə elədim ki, siz davam edin. Növbə gözləyən rəqqasələrdən birinin baş sancağını alaraq, özümü qaydaya saldım, oynaya-oynaya Ramizin qarşısına gəldim. Münsiflər elə bildilər ki, rəqsin quruluşu belə verilib. Orada müsabiqənin laureatı adına layiq görüldüm. Festival komitəsi mənə yazılı təşəkkürünü bildirdi, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti isə fəxri fərmanla təltif etdi.

1958-ci ildə Roza Cəlilova Efiopiyaya üç aylıq qastrol səfərinə gedir. Paytaxt Əddis-Əbəbədə verilən ilk konsertə imperator Hayle Selasiya da gəlir. Konsert başa çatandan sonra imperator iştirakçılarla görüşür və azərbaycanlı rəqqasəyə "İmperator" qızıl medalını təqdim edir. Efiopiya səfərindən sonra Liviyaya, Tunisə də gedərək, orada konsertlər verirlər.

- Tunisdə Faina adlı rus rəqqasə ilə tanış oldum. O, hind rəqslərini dərindən öyrənmək üçün Hindistana gedib bu sahədə təhsil almışdı. Faina boş vaxtlarında mənə hind rəqsini öyrətdi. Ayrılarkən öyrətdiyi rəqsin notunu, əynindəki paltarı, boynundakı silsiləni, topuğuna taxdığı xalxalı da mənə hədiyyə etdi. Bakıya qayıdandan sonra həmin "Benqal" rəqsini oynadım. O rəqs məni daha da məşhurlaşdırdı. Bakıda Hindistan günləri keçirilərkən "Benqal" rəqsini ifa etdim. Azərbaycan səhnəsinə hind rəqsini ilk dəfə mən gətirmişəm. İndi hind rəqslərini oynayan rəqqasələr hind kasetlərinə baxıb hərəkətləri oradan götürürlər. Mənasını isə anlamırlar, ağıllarına gələn hərəkəti edirlər. Onu da deyim ki, mənim hind rəqsim xalq rəssamı Böyükağa Mirzəzadənin o qədər xoşuna gəlmişdi ki, "Rəqqasə" portretini çəkmişdi. Mənə həsr olunmuş həmin portret hazırda İncəsənət muzeyində saxlanılır.

## "Qoca arvad sandığından gəlinliyini, tirmə şalını çıxarıb oynadı"

Roza Cəlilova keçmiş SSRİ-nin bütün respublikalarında, ərəb ölkələrində, Misir, Almaniya, Bolqarıstan, Rumıniya, Albaniya, Efiopiya, Türkiyə, Çin, Afrika, İraq və digər ölkələrdə qastrol səfərlərində olub. Azərbaycanda isə Roza Cəlilovanın çıxış etmədiyi şəhər və qəsəbə qalmayıb. 42 konsertlə çıxış etdikləri Çin səfərindən sonra Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti 1959-cu ildə ona əməkdar artist fəxri adı verir. İfa etdiyi "Azərbaycan süitası", "Tirmə şal", "Qaragöz", "Tərəkəmə", "Lalələr", "İnnabı", "Bənövşə", "Ağ çiçək", "Naz eləmə", "Nazlana-nazlana", "İlk bahar" və müxtəlif dünya xalqlarının digər rəqsləri hər kəs tərəfindən sevilirdi. Roza xanım yeganə rəqqasə idi ki, onun oyununda lirika ilə texnika bir-birini tamamlayırdı. Lirik süjeti, bədən plastikası və kəpənək uçusunu xatırladan zərif əl hərəkətiylə hər bir rəqsində mükəmməl, bitkin bir sənət əsəri yaradırdı. "Tirmə şal" rəqsindən söz düşəndə isə Roza xanım xalq artisti Əlibaba Abdullayevi minnətdarlıqla yad edir.

- O vaxtlar Əlibaba Abdullayev rayonlara gedirdi. Orada ən yaşlı qadınlardan, kişilərdən qədimlərdə hansı rəqslərimizin olduğunu soruşurdu. Heç yadımdan çıxmaz, bir dəfə Əlibaba müəllim danışdı ki, səfərlərin birində qoca arvad sandığından gəlinlik paltarını, tirmə şalını çıxarıb əyninə keçirdi, başına da bir su bardağı qoyub başladı oynayıb-oxumağa - "Dağlara şeh düşəndə, titrə, bənövşə, titrə". Bu mahnının əsasında Əlibaba müəllim "Tirmə şal" rəqsini qurdu. Özü də məhz mənim üçün. Şalın eskizini isə məşhur cərrah Mustafa Topçubaşovun xanımı, rəssam Reyhan Topçubaşova vermişdi. Bu rəqsi sazın müşayiəti ilə oynayırdım. Sazla oynamaq və uğur qazanmaq isə elə də asan deyildi. Rəşid Behbudovun oxuduğu məşhur "Lalələr" mahnı rəqsinin ilk solo ifaçısı da mən olmuşam. Şeirin müəllifi Aslan Aslanov bacım Azadənin - Lenayın həyat yoldaşı olub. Çox gözəl insan idi. Oğul nəvələrimə Aslan və Lalə adlarını vermişəm. Qız nəvələrimə bacım və Aslan müəllimin şərəfinə Lenay və Aslanə adlarını qoymuşam.

## "Şeir və musiqi kimi, rəqsin də öz "dil"i var"

1963-cü ildə ikinci dəfə ana olmağa hazırlaşan Roza Cəlilova həyatın ən ağır zərbəsini alır. Heç bir xəstəliyi olmayan həyat yoldaşı durduğu yerdə keçinir. Elə həmin gün qorxudan, sarsıntıdan qızı Yeganə dünyaya gəlir. Ərinin qəfil ölümü ilə 34 yaşlı Roza dul qalır. Böyük sarsıntı keçirir. Rəqs üçün qolları qalxmır. Ona elə gəlir ki, bir də səhnəyə çıxa bilməyəcək. Amma aylar keçdikcə düşünür ki, nə vaxta kimi qara geyinib, evin bir küncündə oturacaq. Bu, dünyadan köçən sevdiklərini geri qaytaracaqmı? Balalarının qarnını doyuracaqmı? Beləcə, uzun fasilədən sonra televiziyada konsert proqramı ilə çıxış edir, lakin qara paltarda...

Roza Cəlilova 1965-ci ildə Misir səfərindən qayıtdıqdan sonra Mahnı və Rəqs Ansamblının rəqs qrupuna rəhbər təyin edilir. Özü də rəqslərə quruluş verməyə başlayır. Bir dəfə filarmoniyada xalq artisti Şövkət Ələkbərovanın orkestrlə "Ağ çiçək" mahnısını məşq etdiyini görür. Melodiya Roza xanımın ruhunu elə oxşayır ki, mahnı əsasında rəqs qurmaq qərarı verir. Bu quruluşda üç rəqqasə iştirak edir: Roza Cəlilova, Nailə Mahmudova və Afaq Məlikova. Bu, görkəmli rəqqasənin quruluşunda ilk rəqs olur...

1974-cü ildə isə çox sevdiyi, ömrünün 25 ilini həsr etdiyi ansambldan ayrılır. Rəqsdən, rəqs dünyasından isə heç vaxt qopmur. Mədəniyyət Nazirliyinin Elmi-Metodik Mərkəzində metodist kimi çalışır. Masallıda, Lənkəranda, Şamaxıda, Cəbrayılda... rəqs dərnəkləri yaradır. Onun yaratdığı rəqs ansambllarından "Halay"ın, "Yallı"nın və "Gülüstan"ın şöhrəti respublikamızın sərhədini aşır. 1991-ci ildə yaratdığı "Gülüstan" ABŞ-a səfər edən ilk azərbaycanlı rəqs kollektivi olur. Bunlarla yanaşı, uzun illər tələbələrə xoreoqrafiya sənətinin incəliklərini öyrədir.

- Mən səhnə fəaliyyətim boyunca 57 rəqs ifa etmişəm. Gözəl rəqs etmək üçün böyük ürəyin, musiqi duyumun, eşitmə qabiliyyətin olmalıdır. Şeir və musiqi kimi, rəqsin də öz "dil"i, ahəngi var. Gərək çalınan havanın ahəngini hərəkətlərinlə nümayiş etdirəsən, baxışların, əllərin "danışsın" - onda sənin səhnədəki rəqsin rəssamın yaratdığı tabloya çevrilə bilər.

*O, rəqsləriylə səhnədə müxtəlif tablolar yaradıb. Gah dəniz üzərində qanad çalan qağayıya, gah göy üzündə süzən durnaya, gah bağçada bənövşəyə, laləyə, ağ çiçəyə bənzəyib. Gah da tirmə şalı ilə nazlana-nazlana rəqs edib... Bu rəqslərlə iç dünyasını, özünü ifadə etməyə çalışıb. O, rəqsin, rəqs isə onun bir parçasına çevrilib, varlığına hakim kəsilib... Qisməti, tale payı, bütün həyatı olub. Ömrünün ən cazibədar, gözəl illərini bu sənətin inkişafına, təbliğinə həsr edib. Qarşılığında isə tamaşaçı məhəbbəti, uğur, şan-şöhrət, ən başlıcası isə mənəvi zənginlik qazanıb.*

*Hazırda isə 3 nəvəsi onun yolunu davam etdirir. Deyir, "kiçik nəvəm rəqs qrupu yaradıb, ona mənim adımı verəcəyinə söz verib". Yəqin, nəvəsinə baxanda öz uşaqlığını xatırlayır Roza Cəlilova. Axı o da atasına söz vermişdi, and içmişdi. Məşhur rəqqasə olacağına...Və əhdinə xilaf çıxmadı...*

*İndi isə növbə nəvələrinindir...*

**Xəyalə MURADLI,**
***"Azərbaycan"***

# Ölkəmiz Asiya mədəniyyət və turizm sərgisində iştirak edir

Azərbaycan Pekində keçirilən "Asiya sivilizasiyalarının dialoqu" konfransı çərçivəsində Asiya mədəniyyət və turizm sərgisində təmsil olunur.

AZƏRTAC xəbər verir ki, Mədəniyyət Nazirliyinin və ölkəmizin Pekindəki səfirliyinin dəstəyi ilə yaradılan stenddə Azərbaycan tarixinə, mədəniyyətinə, ölkəmizin müasir inkişafına, turizm potensialına dair eksponatlar, o cümlədən şəkillər, xalçalar, musiqi alətləri, milli geyim nümunələri, kitab və nəşrlər nümayiş etdirilir. Monitorda Azərbaycan təbiətinin gözəlliklərinə, ölkəmizdə təşkil olunan beynəlxalq tədbirlərə, mötəbər idman yarışlarına dair videolar nümayiş olunur.

Azərbaycan stendini ziyarət edənlərə ölkəmizin hərtərəfli inkişafı, turizm obyektləri, mədəni irsi barədə məlumat verilir, nəşrlər paylanılır.

Qeyd edək ki, Çin Xalq Respublikasının Sədri Si Cinpinin təşəbbüsü ilə keçirilən "Asiya sivilizasiyalarının dialoqu" konfransı bir həftə davam edəcək. Tədbir çərçivəsində paytaxt Pekin ilə yanaşı, Xancou, Quancou və Çendu şəhərlərində müxtəlif tədbirlər, forumlar, həmçinin Asiya sivilizasiyalar paradı, mədəniyyət və milli mətbəx festivalları, film və televiziya həftəsi keçiriləcək. "Asiya sivilizasiyalarının dialoqu" konfransı 2-ci "Bir kəmər, bir yol" beynəlxalq əməkdaşlıq forumu və "Pekin Ekspo-2019" Botanika Sərgisi ilə yanaşı, bu il Çində keçirilən ən böyük üç tədbirdən biridir.

# Özbəkistanın "Mədəniyyət və mərifət" telekanalında Azərbaycan haqqında videoreportaj yayımlanıb

Özbəkistanın "Mədəniyyət və mərifət" telekanalında Azərbaycan haqqında özbək dilində videoreportaj yayımlanıb. AZƏRTAC xəbər verir ki, bu yaxınlarda Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə bir qrup özbək jurnalistin ölkəmizə mediaturu təşkil olunub, onlar Bakını və regionlarımızı gəzib, videomateriallar hazırlayıblar.

Telekanalın müxbiri Nazira Boymuradova reportajında Şərq ilə Qərbin qovuşuğunda yerləşən Azərbaycan haqqında məlumat verir. Jurnalist qeyd edir ki, paytaxt Bakıdakı binalarda da məhz Şərq və Qərb memarlıq ənənələri vəhdət təşkil edir.

Reportajda qeyd olunur ki, Böyük İpək yolu üzərində yerləşdiyindən Azərbaycanda elm, mədəniyyət və incəsənət sürətlə inkişaf edib.

Azərbaycanın coğrafiyası haqqında ətraflı məlumat verən müəllif Bakının mərkəzində çəkilişlər aparıb, özbək və Azərbaycan xalqlarının əbədi dostluğu, tarixi, müştərək mədəniyyəti, bugünkü əlaqələrindən söhbət açıb.

İçəri şəhərin tarixi haqqında danışan jurnalist bu məkanı Özbəkistandakı qədim Xivə şəhərindəki İçan kala ilə müqayisə edir. Bildirilir ki, Qız qalası İçəri şəhərin dəniz tərəfdən qapısıdır. Turistlər İçəri şəhərə adətən buradan və Qoşa qala qapısından daxil olurlar. Hər iki qapıdan qədim şəhərə girərkən sanki əfsanəvi bir məkana düşürsən. Burada hər şey qədimlikdən xəbər verir. Qeyd olunur ki, İçəri şəhərdə və Xivədəki İçan kalada indi də insanlar yaşayırlar. Hər gün hər iki məkanda yüzlərlə turist görmək olar. Jurnalist İçəri şəhəri qədim Səmərqənd və Buxara ilə müqayisə edir.

Reportajda Azərbaycan musiqisi, o cümlədən muğamlarımız haqqında da danışılır.

Jurnalist Şəhidlər xiyabanı haqqında da tamaşaçılara məlumat verir, Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda canlarını fəda edən oğullar və qızlar haqqında söhbət açır.

Tamaşaçılara Xəzər dənizi, Azərbaycanın iqtisadiyyatı, neft strategiyası barədə də ətraflı məlumat verilir.

Reportajda maraq doğuran məqamlardan biri də odur ki, jurnalist yerli sakinlərlə birgə Azərbaycan mahnıları oxuyub, qutab bişirilməsi prosesində iştirak edib.

# Kreativ layihə uşaqların ürəyincə oldu



Sumqayıt Dövlət Dram Teatrı son vaxtlar tamaşaçıların teatra marağının artırılmasına yönələn müxtəlif layihələr gerçəkləşdirir.

Bu qəbildən olan növbəti ekskursiya - baxış layihəsi çərçivəsində şəhər Mərkəzi kitabxanasının uşaq şöbəsində fəaliyyət göstərən Sabir Sarvan adına Uşaq Poeziya Klubunun üzvləri sənət məbədini ziyarət ediblər. Uşaqlar qrim otaqlarına baxıb, tamaşa qabağı hazırlığı, texniki prosesi izləyiblər. Kiçik tamaşaçılara repertuardakı əsərlər, onların ideya-estetik qayəsi barədə məlumat verilib.

Mərkəzi kitabxananın uşaq şöbəsinin müdiri Yeganə Hüseynova belə tədbir və görüşlərin uşaqların dünyagörüşlərinin formalaşmasında önəm kəsb etdiyini bildirib. Rejissor Vasif Məmmədovun quruluşunda Abdulla Şaiqin "Danışan gəlincik" əsərinə tamaşa etdikdən sonra balaca aktyorlarla teatr truppası yerlərini dəyişib. Bu dəfə uşaq teatrının üzvləri səhnəyə çıxaraq Cəlil Məmmədquluzadənin, Cəfər Cabbarlının yaradıcılığından nümunələr səsləndiriblər. Balacaların çıxışları peşəkar heyət tərəfindən alqışlarla qarşılanıb.

Daha sonra uşaqlara tamaşanın ərsəyəgəlmə prosesində önəmli olan faktorlar və afişalar haqda məlumat verilib. Həmçinin 50 yaşlı Sumqayıt Dövlət Dram Teatrının veteran aktyorlarının şəkilləri həkk olunmuş stenddə nəzər salınıb.

Sonda uşaq klubunun üzvləri teatrın kollektivinə maraqlı görüşə görə minnətdarlıq edib. Vurğulanıb ki, belə kreativ layihələrin həm bədii-estetik, həm də maarifləndirici funksiyası əvəzolunmazdır.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# "AzerTelecom" şirkətinin Digital HUB proqramının gənclər üçün yaradacağı imkanlar müzakirə olundu

Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayderi "AzerTelecom" şirkəti və Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kollecinin birgə təşkilatçılığı ilə "Sənaye 4.0: Rəqəmsallaşma şəraitində təhsil və karyera" adlı tədbir keçirilib.



Tədbirdə tələbələrə dördüncü sənaye inqilabı şəraitində rəqəmsallaşma, Azərbaycanın rəqəmsal mərkəzə çevrilməsi üçün "AzerTelecom" şirkəti tərəfindən icra edilən "Azerbaijan Digital Hub" proqramı və onun ölkəmiz üçün üstünlükləri, rəqəmsallaşma dövründə gənclərin təhsili və karyera seçimi barəsində faydalı fikir mübadiləsi aparılıb.

"AzerTelecom" şirkətinin baş icraçı direktoru Fuad Allahverdiyev çıxışında rəqəmsallaşma şəraitində gənclərin qarşısında mühüm imkanların açıldığını bildirib, ölkəmizin rəqəmsal mərkəzə çevrilməsi üçün "AzerTelecom" şirkətinin icra etdiyi "Azerbaijan Digital Hub" proqramı barəsində ətraflı danışıb. Fuad Allahverdiyev "Digital HUB" proqramının ölkə iqtisadiyyatı, xüsusilə də informasiya və kommunikasiya texnologiyaları sektorunun davamlı inkişafı üçün yaradacağı imkanlardan bəhs edib, İT sahəsi üzrə ölkədə gənc kadrlara böyük tələbatın olduğunu, "Digital HUB" proqramının əsas məqsədlərindən birinin də məhz İT sahəsində yerli kadrların yetişdirilməsi, yeni iş yerlərinin açılması, ölkədən beyin axının qarşısının alınması olduğunu qeyd edib. O, ixtisaslı kadrların yetişdirilməsi üçün özəl sektorun təhsil müəssisələri ilə sıx əməkdaşlığının vacibliyini vurğulayıb.

Digər çıxış edənlər - Azərbaycan Texniki Universitetinin kaferda müdiri, professor Mehman Həsənov, Bakı Dövlət Rabitə və Nəqliyyat Kollecinin direktoru Bəxtiyar Bəxtiyarov, tanınmış biznes kouç, təlimçi və həkim-psixiatr Həlimə Qəmərlinskaya, tədbirin moderatoru, kollecin müəllimi Oqtay Əliyev və insan resurslarının idarə edilməsi sahəsində digər tanınmış ekspertlər İKT sahəsində müasir trendlər, tələbələrin düzgün ixtisas seçimi mövzularında danışıblar, həmçinin kolleclə "AzerTelecom" şirkəti arasında əməkdaşlığın vacibliyini vurğulayıblar.

"AzerTelecom" şirkəti Azərbaycanın ilk mobil operatoru "Bakcell" şirkətinin törəmə müəssisəsidir və 2008-ci ildə təsis edilib. Şirkət telekommunikasiya sektorunda yerli və xarici şirkətlərə müxtləlif qabaqcıl xidmətlər təqdim edir. "AzerTelecom" hazırda Azərbaycanın sahib olduğu Enerji və Nəqliyyat Mərkəzi statuslarına əlavə olaraq ölkənin Regional Rəqəmsal Mərkəzə çevrilməsi üçün "Azerbaijan Digital Hub" proqramını icra edir. "Digital Hub" proqramının məqsədi ölkəni Qafqaz, MDB, Orta və Cənubi Asiya, Yaxın Şərq və ətraf regionlar üçün Rəqəmsal Mərkəzə çevirməkdir.

***"Azərbaycan"***

# "Təmiz Şəhər" ASC 200 min nəfəri alternativ enerji ilə təmin edib



Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2018-ci ildə ölkəmizdə əldə olunan alternativ enerjinin 51 faizi məhz tullantıların düzgün zərərsizləşdirilməsindən alınır. Ötən il Bakı Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda tullantıların yandırılması nəticəsində 162,2 milyon KVt/s və ya 200 min nəfəri il ərzində təmin edəcək qədər elektrik enerjisi istehsal edilib.

Qeyd edək ki, Bakı Bərk Məişət Tullantılarının Yandırılması Zavodu 2012-ci ildə istifadəyə verilib. Dördüncü nəsil 4G texnologiyası ilə inşa edilən bu zavod il ərzində 500 min ton bərk məişət və 10 min ton tibbi tullantı yandırmaq gücünə malikdir. Yanma zamanı bacadan çıxan tüstü xüsusi filtrlərdən keçərək tam neytrallaşdırıldıqdan sonra havaya buraxılır. Nəticədə tullantıların həcmi 10 dəfəyədək azaldılır və qaynayan su buxara çevrilərək elektrik enerjisi yaradır.

Ümumiyyətlə, Bakı şəhərində tullantıların düzgün yerləşdirilməsi və zərərsizləşdirilməsi nəticəsində ekoloji mühitin yaxşılaşdırılması, sahibkarların təkrar emal sahəsinə cəlb olunması istiqamətində son illər ərzində ciddi adımlar atılıb. Bu baxımdan Balaxanıda yerləşən Almaniya texnologiyaları ilə inşa edilən Bərk Məişət Tullantılarının Çeşidlənməsi zavodu mühüm əhəmiyyət kəsb edir. Zavod il ərzində 200 min ton tullantı qəbul etmək gücünə malikdir. Bu zavodda çeşidlənən tullantılar təkrar emal müəssisələrini özündə birləşdirən Balaxanı Sənaye Parkına yönləndirilir.

Yanmaya və çeşidlənməyə yararlı olmayan tullantılar isə ekoloji standartlara uyğun qaydalara əməl olunmaqla Balaxanı Bərk Məişət Tullantılarının Zərərsizləşdirilməsi Poliqonunda basdırılır. Ötən əsrin 60-cı illərindən fəaliyyət göstərən poliqon cəmi 10 il əvvəl tüstü və yanğınlar mənbəyi hesab olunurdu. Hazırda isə poliqon beynəlxalq ekoloji normalara tam cavab verən sanitar statusa malikdir. Burada tullantıdan ayrılan çirkab sular filtrlər vasitəsilə texniki suya, bioqazlar isə elektrik enerjisinə çevrilir. Beləliklə, son 10 il ərzində tullantıların yerləşdirilməsi və zərərsizləşdirilməsindən maksimum fayda əldə olunaraq ekologiyanın qorunması sahəsində böyük tərəqqi əldə olunub.

# TAP yüksək gəlirlər gətirəcək, əməkdaşlıq körpülərini möhkəmləndirəcək

## Kəmərin təməlinin qoyulduğu vaxtdan 3 il keçir

TAP (Transadriatik Qaz Boru Kəməri) "Cənub qaz dəhlizi"ni yaradan üç mühüm kəmərin sonuncusudur. Hazırda çəkilişi başa çatmaqda olan bu kəmər Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayacaq.

TAP-ın təməli 2016-cı il mayın 17-də Yunanıstanın Saloniki şəhərində qoyulub. Təməlqoyma mərasimində Azərbaycanın, Yunanıstanın, ABŞ-ın, Albaniyanın, İtaliyanın, Türkiyənin, Gürcüstanın, Bolqarıstanın yüksək vəzifəli şəxsləri, Avropa Komissiyasının və konsorsiuma daxil olan şirkətlərin səlahiyyətli nümayəndələri iştirak ediblər.

Transadriatik Qaz Boru Kəmərinin inşasına başlanması region üçün böyük əhəmiyyət kəsb edən hadisə idi. Çünki bu kəmər enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə və mənbələrin şaxələndirilməsinə ciddi dəstək verəcək. O, eyni zamanda regionda əməkdaşlıq körpülərini möhkəmləndirəcək, yüksək gəlirlər, firavanlıq, xeyir-bərəkət gətirəcək.

Təməlqoyma mərasimində bildirilmişdi ki, 2020-ci ildən başlayaraq Azərbaycan qazının Avropaya nəqli nəzərdə tutulur. Ona görə də qarşıda qazı Avropa bazarına vaxtında çatdırmaq, tranzit və istehlakçı ölkələrin hər birinin iqtisadi maraqlarının təmin edilməsinə nail olmaq kimi əsas vəzifə dayanır.

TAP layihəsinin reallaşması ilə Avropa bazarlarına yeni mənbədən qaz çıxışına şərait yaranacaq. Belə ki, "Cənub qaz dəhlizi"nin sonuncu seqmenti olan TAP Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində çıxarılan mavi yanacağı nəql edəcək. Kəmərlə ilk dövrlərdə Avropaya ildə 10 milyard kubmetr qaz çatdırılacaq. Sonrakı illərdə qazın həcmi 20 milyard kubmetrə qədər artırılacaq.

Xatırladaq ki, Azərbaycanın təşəbbüsü ilə reallaşan "Cənub qaz dəhlizi" müasir dövrün ən böyük infrastruktur layihələrindən biridir. Hazırda layihənin gerçəkləşməsində yeddi ölkə - Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliya iştirak edir. Azərbaycan Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro ilə də Avropada enerji sahəsində əməkdaşlığın genişləndirilməsinə dair anlaşma memorandumu imzalayıb. Beləliklə, bu qlobal xarakterli layihə möhkəm beynəlxalq əməkdaşlıq təməli üzərində getdikcə şaxələnir.

TAP layihəsində SOCAR (20 faiz), BP (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagas" (16 faiz) və "Axpo" (5 faiz) şirkətləri iştirak edir.

TAP kəməri Azərbaycan qazının Yunanıstandan, Albaniyadan, Adriatik dənizinin altından keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya daşınmasını nəzərdə tutur. Bu, uzunluğu təxminən 878 kilometr olan boru xəttidir. Onun 550 kilometri Yunanıstanın, 210 kilometri Albaniyanın ərazisindən, 105 kilometri Adriatik dənizinin altından keçəcək və sonuncu hissəsi İtaliya torpağında quru sahəyə çıxacaq. Burada kəmər "Snam Rete Gas" şirkətinin istismar etdiyi qaz nəqliyyatı şəbəkəsinə birləşdiriləcək.

Layihənin İtaliyada bitməsinə baxmayaraq, gələcəkdə ara keçid boru kəmərləri vasitəsilə İsveçrə, Avstriya, Fransa, Almaniya, Belçika, hətta İngiltərəyə təbii qazın ötürüləcəyinin mümkün olacağı istisna edilmir. TAP-ın əhəmiyyəti həm də ondadır ki, Yunanıstan-Bolqarıstan İnterkonnektoru və İon-Adriatik qaz kəmərinin təchizatını asanlaşdıracaq.

Üç il əvvəl təməli qoyulan kəmərin tikintisi həmin vaxtdan indiyədək ahəngdar davam edir. 2009-cu ildən bəri aparılan dizayn və mühəndislik işləri də daxil olmaqla, layihənin ümumi dəyərinin 4,5 milyard avro təşkil edəcəyi nəzərdə tutulur.

Kəmərin çəkilişi inşaatçılardan böyük səriştə və məsuliyyət tələb edir. Belə ki, xəttin keçdiyi yol fərqli coğrafi şəraitdə yerləşir. Marşrut boyu kəmərin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdə olacaq. Ən yüksək hissəsi isə Albaniya dağlarında 1800 metrə çatan zirvələrdən keçəcək. TAP-ın bir sıra yerüstü obyektləri, məsələn, ölçmə və kompressor stansiyaları da var. Tikinti işlərinin çətinliyi həm də onunla bağlıdır ki, digər kəmərlərdən fərqli olaraq, TAP-ın bir hissəsi suyun altından keçir. Bütün bunlara baxmayaraq, inşaatçılar öhdələrinə düşən işi ilk gündən bacarıqla yerinə yetirirlər.

TAP Türkiyə ilə Yunanıstan sərhədində yerləşən Kipoi məntəqəsində TANAP-a (Transanadolu Qaz Boru Kəməri) birləşəcək. Qeyd edək ki, TANAP-la artıq bir ilə yaxındır "Şahdəniz" qazı nəql olunur.

"Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının bu il fevralın 20-də Bakıda keçirilən növbəti toplantısında Prezident İlham Əliyev demişdir: "Transadriatik boru kəmərinin inşasında da böyük irəliləyiş var. Ötən ilin fevral ayında şura qarşısında çıxışımda TAP-ın hazırlığının 67 faiz səviyyəsində olduğunu qeyd etmişdim. İndi isə son göstəricilərə görə bu rəqəm 87 faizdir. Yəni bir ildə biz böyük irəliləyişə nail olmuşuq, işlər uğurla gedir və ümidvaram ki, gələn il biz yeni nəticələr haqqında danışacağıq".

Son aylarda kəmərin çəkilişi bir qədər də irəliləyib. Bu da gözlənilən nəticələrin gələn il həqiqətə çevriləcəyindən, TAP-ın Azərbaycan qazını Avropaya vaxtında çatdıracağından xəbər verir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Bakıda bədii gimnastika üzrə 35-ci Avropa çempionatının təntənəli açılış mərasimi olub

Mayın 16-da Bakıda bədii gimnastika üzrə 35-ci Avropa çempionatının təntənəli açılış mərasimi olub.

AZƏRTAC xəbər verir ki, əvvəlcə iştirakçı ölkələrin paradı keçirilib.

Avropa Gimnastika İttifaqının (UEG) prezidenti Fərid Qayıbov açılış mərasimində çıxış edərək rəhbərlik etdiyi qurumun adından iştirakçıları təbrik edərək uğurlar arzulayıb. Azərbaycanın artıq dördüncü dəfədir bədii gimnastika üzrə Avropa çempionatına evsahibliyi etdiyini xatırladan F.Qayıbov ölkəmizdə idmanın bu növünün inkişafına görə Azərbaycan Gimnastika Federasiyasının prezidenti xanım Mehriban Əliyevaya, həmçinin idmançılara və azarkeşlərə minnətdarlığını bildirib.

Sonra F.Qayıbov çempionatı açıq elan edib.



Sonra əməkdar artist Sevda Ələkbərzadənin ifasında Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib və rəsmi hissəyə yekun vurulub.

Açılış mərasimi gimnastika üzrə milli komandalarımızın üzvlərinin və xoreoqrafiya qrupunun ifasında "Bizim qəhrəmanlar" kompozisiyası ilə davam edib. Kompozisiyanın qəhrəmanları bir zamanlar paralel dünyada yaşayan iki qardaş - Su adam və Alov adam təşkil ediblər. Rəvayətə görə, bir gün qardaşlar oyun oynayırlar. Bu oyun zamanı Su adam qardaşına qalib gələrək 8 medal qazanır. Qəzəblənən Alov adam qardaşını insanların dünyasına qovur. İnsanların dünyasında Su adam super qəhrəmanların komandası ilə tanış olur. Bu qəhrəmanlar ona öz dünyasına qayıtmağa və qardaşının ordusuna qalib gəlməyə kömək edirlər. Bu yaxşılığın qarşılığında Su adam qazandığı medalları intiqam almaqda ona kömək edən bütün döyüşçülərə paylayır, sonuncu medalı isə sülh və dostluq əlaməti olaraq öz qardaşına - Alov adama verir. Kompozisiyanın əsas qayəsi olan səkkiz medal Avropa çempionatının səkkiz dəst medalını təcəssüm etdirir.

Dörd gün davam edəcək çempionatın fərdi proqramında böyük gimnastlar, qrup hərəkətləri proqramında isə gənc komandalar məharətlərini göstərəcəklər. Çempionatda 35 ölkədən gimnastlar iştirak edirlər.

Xatırladaq ki, 2007-ci, 2009-cu və 2014-cü illərdə də bədii gimnastika üzrə Avropa çempionatı Bakıda keçirilib.

# İsmayıllıda "Strateji Yol Xəritəsi" mövzusunda seminar-treninq keçirilib

İsmayıllı Rayon İcra Hakimiyyəti iqtisadiyyat, maliyyə qurumları ilə periodik və inkişafın müxtəlif istiqamətlərinə uyğun olaraq seminarlar, treninqlər, elmi konfranslar keçirir.

Bunlar da rayonun sosial-iqtisadi inkişafının sürətini və keyfiyyətini artırmaq stimuluna çevrilir. Azərbaycan Dövlət İqtisad Universitetinin İsmayıllı Rayon İcra Hakimiyyəti ilə birgə "Maliyyə savadlılığının və biznes subyektlərində texnologiya savadlılığının artırılması və "Strateji Yol Xəritəsi" mövzusunda keçirdiyi seminar-treninq miqyası və məzmunu ilə daha çox iştirakçı cəlb edib.

Heydər Əliyev Mərkəzində keçirilən tədbiri İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı, iqtisad elmləri doktoru, professor Mirdaməd Sadıqov açıb və qeyd edib ki, bu tip tədbirlər iqtisadi, maliyyə, kommersiya, biznes qurumlarının fəaliyyətinə elmilik, müasirlik gətirir, idarəetmə imkanlarını artırır.

Seminarın giriş hissəsində ADİU-nin "Maliyyə və maliyyə institutları" kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor Əvəz Ələkbərov və "Mühasibat uçotu və audit" kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor Sifariz Səbzəliyev çıxış ediblər. "Azərbaycan Respublikasında vergi islahatları çərçivəsində edilən dəyişikliklər, görüləcək işlər, vergi orqanları və sahibkarların birgə fəaliyyəti. Vergi inzibatçılığında yeni elektron texnologiyalarının tətbiqi imkanları", "Bank biznesinin ən yeni formaları, şəbəkə və internet bankları, hesabların distant idarə olunması. Elekton bankçılığın gələcək inkişaf perspektivləri" və "Elektron mühasibatlığın tətbiqi və bu sahədə olan yeniliklər" mövzusunda məruzələr dinlənilib.

Seminar-treninq diskussiya formasında yekunlaşıb.

***"Azərbaycan"***

# Atəşkəs rejimi 25 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində atəşkəs rejimini 25 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Qazax rayonunun Kəmərli, Tovuz rayonunun Ağbulaq, Muncuqlu kəndlərində, Gədəbəy rayonunun Göyəli kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Baş Qərvənd, Abdinli, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

## "Azərsu" ASC fərdi mühafizə vasitələrinin və xüsusi geyim formalarının satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender 2 LOT üzrə keçirilir:

LOT-1. Fərdi mühafizə vasitələrinin və xüsusi geyim formalarının satınalınması.

LOT-2. Çəkmələrin satın alınması.

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, təcrübə, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentindən (əlaqələndirici şəxs: Məmmədyar Musayev, tel: 431 47 67/2288) ala bilərlər.

**Hər bir LOT üzrə iştirak haqqı 200 manatdır.**

**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**SWIFT. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *əsas şərtlər toplusunda nəzərdə tutulmuş digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **1 iyul 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərflərdə **9 iyul 2019-cu il saat 16:00-a** qədər Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **10 iyul 2019-cu il saat 16:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu tərəfindən "Azərbaycan" qəzetinin 14.03.2019-cu il tarixdə elan edilmiş fondun aparatı, yerli orqanları və tabeliyində olan sosial xidmət müəssisələrinə çap və mətbəə mallarının satın alınması üzrə elan edilmiş açıq tenderdə 1-ci LOT üzrə "NUR-SS" MMC, 2-ci LOT üzrə "Lotus CO" MMC qalib müəyyən edilmişdir.

Dövlət Sosial Müdafiə Fondu və "NUR-SS" MMC arasında 1-ci LOT üzrə 119929.28 (yüz on doqquz min doqquz yüz iyirmi doqquz manat, 28 qəpik) manat, 2-ci LOT üzrə isə "Lotus CO" MMC ilə 159970,69 (yüz əlli doqquz min doqquz yüz yetmiş manat, 69 qəpik) manat dəyərində 14 may 2019-cu il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti
### *açıq tender elan edir*

Tender 7 LOT üzrə keçirilir.

**LOT 1:** 1164 ədəd müxtəlif amperajlı 12V, 200 ədəd müxtəlif amperajlı 6V, 96 ədəd müxtəlif amperajlı 2V-luq stansiya tipli akkumlyatorların satın alınması

**İştirak haqqı: 1500 (bir min beş yüz) manat**

**LOT 2:** 10000 ədəd 3,25 metr hündürlüyündə dəmir-beton calaq, 5000 ədəd 1,2 metr hündürlüyündə ölçü-nişan dirəyi və ⌀ 5 mm-lik 30 ton yanmış dəmir məftilin satın alınması

**İştirak haqqı: 500 (beş yüz) manat**

**LOT 3:** 53 adda dəftərxana ləvazimatlarının satın alınması

**İştirak haqqı: 500 (beş yüz) manat**

**LOT 4:** IPTV infrastrukturunun satın alınması

**İştirak haqqı: 2000 (iki min) manat**

**LOT 5:** 1000 kq qaynaq lenti, 100 km şüşə lentin, 500 dəst ETZK-1 qaz buraxmayan muftalar üçün VİLAD A-31 və VİLAD B-31 kompaut dəsti və 100 dəst kəndir blok dəstinin satın alınması

**İştirak haqqı: 300 (üç yüz) manat**

**LOT 6:** 1000 ədəd “Huawei” JPX202-FA8-72 - 100x2 reqleti (qoruyucuları ilə birlikdə), 10 000 ədəd LSA-PROFIL 2/10 - 10x2 cütlük reqlet (100 ədəd montaj aləti ilə birlikdə), 1000 ədəd 10 reqletlik montaj darağı, 95 000 ədəd RJ-45 və 5 000 ədəd RJ-11 başlıqlarının satın alınması

**İştirak haqqı: 800 (səkkiz yüz) manat**

**LOT 7:** 360 ədəd 2 kq-lıq (karbon), 276 ədəd 6 kq-lıq (tozlu), 80 ədəd 6 kq-lıq (karbon) yanğınsöndürmə balonlarının və 80 ədəd tam komplektləşdirilmiş yanğınsöndürmə lövhələrinin alınması və 2000 ədəd 6 kq-lıq (tozlu) yanğınsöndürmə balonlarının “Aztelekom” MMC-nin respublikanın regionları üzrə TKQ-da doldurulması xidmətinin satın alınması

**İştirak haqqı: 300 (üç yüz) manat**

Tenderdə yerli və xarici hüquqi şəxslər iştirak edə bilərlər.

Tenderdə iştirak etmək istəyənlər iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti, 187 (əlaqələndirici şəxs: Faiq Mustafayev tel: 012 344-00-00 (372); e-mail: faiq.mustafayev@aztelekom.az ) ünvanından əldə edə bilərlər.

**Müəssisənin adı: “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Hesab nömrəsi: AZ62AZPO 91015461200420100166**
**Müəssisənin VÖEN-i: 9900038501**
**Ünvan: AZ1122, Bakı şəh, Tbilisi prospekti -187**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**Müxbir hesab: AZ76NABZ 01350100000000094944**
**SWIFT BİK: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *iddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *tenderin əsas şərtlər toplusunda nəzərdə tutulan və tenderin əsas şərtlər toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil olunduqları dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş, müvafiq qaydada leqallaşdırılmış və ya apostil olunmuş və notarial qaydada təsdiq edilmiş nüsxəsini mütləq əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir.

İddiaçılar tender təkliflərini 2 (iki) nüsxədə (əsli və surəti) təqdim etməlidirlər. İddiaçıların təkliflərinin əsli və surəti arasında fərqlər olduqda üstünlük “Əsli” sözü yazılmış nüsxəyə veriləcəkdir.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **28 iyun 2019-cu il saat 17:00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **08 iyul 2019-cu il saat 17:00-dək** Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti, 187 ünvanına (“Aztelekom” MMC-nin Tender komissiyasına) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır

İddiaçıların təklifləri **09 iyul 2019-cu il saat 11:00-da** Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti, 187 ünvanında - “Aztelekom” MMC-nin inzibati binasında açılacaqdır.

Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Heydər Əliyev Beynəlxalq Aeroportu Bakıda UEFA Avropa Liqası finalının keçiriləcəyi dövr üçün xüsusi tədbirlər planı hazırlayıb

Bakıda UEFA Avropa Liqası finalının keçiriləcəyi dövr üçün Heydər Əliyev Beynəlxalq Aeroportu çox sayda təyyarə və sərnişinləri qəbul etmək məqsədilə xüsusi tədbirlər planı hazırlayıb. Bakının hava limanının bütün xidmətləri gücləndirilmiş rejimdə fəaliyyət göstərəcək.

Heydər Əliyev Beynəlxalq Aeroportunun mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, aeroportun buraxılış qabiliyyəti saatda 10 min sərnişin təşkil edir və bununla əlaqədar olaraq, heç bir aviaşirkətə müntəzəm və çarter reyslərini yerinə yetirməyə rədd cavabı verilməyəcək.

Hazırda Heydər Əliyev Beynəlxalq Aeroportu mayın 28-də və 29-da çarter reyslərinin yerinə yetirilməsi üçün 45-dən çox müraciəti təsdiqləyib. Buraya, həmçinin 16 biznes aviasiya reysi daxildir, 2 aviareys ilə futbol komandaları və 10 reys ilə klubların fanatları gətiriləcək. Həmçinin “Türk Hava Yolları”, “Air Arabia”, “Fly Dubai”, “ISRair”, “Jazeera Airways” və sair kimi xarici aviaşirkətlər əlavə uçuşlar yerinə yetirmək üçün müraciət ediblər.

Finalın keçiriləcəyi dövrdə Heydər Əliyev Beynəlxalq Aeroportunda bütün reyslərin maneəsiz yerinə yetirilməsi və terminaldan çox sayda sərnişinin rahat keçməsi üçün bütün şərait yaradılacaq.

Qeyd edək ki, Bakının hava limanı artıq böyük beynəlxalq tədbirlərin, o cümlədən İlk Avropa Oyunları, “Formula-1”, İslam Həmrəyliyi Oyunları və sair kimi idman tədbirlərinin keçirilməsində geniş təcrübəyə malikdir.

## “Azercell” ADA Universitetinin tələbələri üçün master-klass təşkil edib



Ölkəmizin aparıcı universitetləri ilə əməkdaşlıq edən, ali təhsil mərkəzlərinin maddi-texniki bazasının zənginləşdirilməsinə yardım göstərən “Azercell Telekom” MMC mütəmadi olaraq gəncləri maraqlandıran sahələr üzrə master-klasslar keçirir. Növbəti belə tədbir ADA Universitetinin tələbələri üçün təşkil olunub. “Azercell”in baş ofisində keçirilən master-klassda ADA Universitetinin sonuncu kurs tələbələri iştirak edib. “Azercell”in İstehlakçı Seqment Biznes Strukturu, “CRM” bölümünün rəhbəri Emil Əmirov, İstehlakçı Seqment Biznes Strukturu, Biznesin təhlili bölümünün aparıcı mütəxəssisi Zaur Hüseynov və Korporativ Seqment Biznes Strukturu, Məhsul və Xidmətlər bölümünün mütəxəssisi Rüfət Qafarov tələbələrlə görüşərək, məhsulun yaradılması, biznes təhlili və analizi kimi vacib mövzularla bağlı öz zəngin təcrübələrini bölüşüblər. Həmçinin İnsan qaynaqları departamentinin mütəxəssisləri tərəfindən iştirakçılara gənclərin peşəkar və fərdi fəaliyyətini dəstəkləmək məqsədilə yaradılan yeni “Azercell-Lab” ödənişli təcrübə proqramının başlanması ilə bağlı məlumat təqdim olunub. Belə ki, “Azercell” iyul ayının 1-dən etibarən bakalavr və magistr tələbələrinə, həmçinin bakalavr və magistr dərəcələrində ali təhsillərini artıq tamamlamış gənclərə “İT-Lab” və “Biznes-Lab” inkubasiya mərkəzləri vasitəsilə peşəkar mühitdə karyera qurmaq imkanları, şirkət tərəfindən həyata keçirilən layihələrdə iştirak və əvəzolunmaz təcrübə qazanmaq fürsətləri yaradır. Məruzəçilər sonda iştirakçıları maraqlandıran sualları cavablandırıblar.

“Azercell Telekom” MMC təhsilə və gənclərin inkişafına hər zaman xüsusi qayğı ilə yanaşıb. Bir sıra ali təhsil ocaqları ilə əməkdaşlıq memorandumları imzalayan şirkət tələbələrin innovativ ideyalarının reallaşdırılmasına, onların təcrübəli və peşəkar kadr olaraq yetişdirilməsinə öz töhfəsini verib.

***“Azərbaycan”***

*Təkrar*

## Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyi dəftərxana və təsərrüfat mallarının satın alınması məqsədilə
### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir:

LOT - 1 Dəftərxana və təsərrüfat mallarının satın alınması

Tender iştirakçıları “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq, yuxarıda göstərilən LOT üzrə öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etməlidirlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

- *aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, iddiaçının bu sahədə səriştəsi, maliyyə vəziyyəti.*

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderlə əlaqədar məlumat almaq üçün maraqlananlar əlaqələndirici şəxsə müraciət edə bilərlər. Əlaqələndirici şəxs: Axundov Nihad Bəsrət oğlu, tel/faks: 404-04-01/404-04-03, ünvan: AZ 1069, Bakı şəhəri, Mustafa Kamal Atatürk pr., 134.

Maraqlananlar Azərbaycan dilində tərtib edilmiş əsas şərtlər toplusunu LOT-1 üzrə 400 manat məbləğində iştirak haqqını ödədikdən sonra yuxarıda göstərilən ünvandan ala bilərlər.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba ödəməlidirlər:

**Təşkilatın adı: Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi**
**VÖEN: 1603326271**
**Bank rekvizitləri: “Kapital Bank” ASC-nin Mərkəzi filialı**
**H/h: AZ33AIIB38060019440419716102**
**VÖEN: 9900003611**
**Kod: 200026**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**SWIFT: AIIBAZ2X**
**Büdcə səviyyəsinin kodu: 7**
**Büdcə təsnifatının kodu: 142340**

İştirak haqqı heç bir halda geri qaytarılmır. Tenderdə iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adını, hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü gүvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən azı 30 bank günü çox olmalıdır);*
- *iddiaçıların son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **11 iyun 2019-cu il saat 18:00-dək**, tender təklifi və bank təminatını isə möhürlənmiş və ikiqat zərfdə **19 iyun 2019-cu il saat 18:00-dək** Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təkliflər **20 iyun 2019-cu il saat 16:00-da** Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyində (ünvan: AZ 1069, Bakı şəhəri, Mustafa Kamal Atatürk pr., 134) açılacaqdır.

Təklif zərflərinin açılmasında iddiaçıların səlahiyyətli nümayəndələri də iştirak edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

“Azərbaycan” qəzetinin 12 may 2019-cu il tarixli sayında dərс olunmuş Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi “Bakı Telefon Rabitəsi” MMC-nin tender elanında sənədlərin qəbulu vaxtı (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla ) 20 iyun 2019-cu il saat 17:00-a dəyişdirilmişdir.

***Tender komissiyası***

## BİLDİRİŞ

Bakı Ali Neft Məktəbi tərəfindən qısaqol köynəklərin kotirovkalar sorğusu üsulu ilə satın alınmasına dair keçirilmiş müsabiqədə “Bakı Tekstil Fabriki” MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 47790 (qırx yeddi min yeddi yüz doxsan) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# Beynəlxalq aləm

## İraqda İŞİD polisə hücum etdi



İraqın şimalında yerləşən Kərkük əyalətində İŞİD terrorçuları polislərə iki dəfə hücum etmişlər. Nəticədə hüquq-mühafizə orqanlarının 6 nümayəndəsi həlak olmuşdur. Bu barədə “Anadolu” agentliyinə Kərkükdəki əməliyyatların komandanı, general Səəd Hərbiyyə məlumat vermişdir.

Məlumata görə, Kərkükün cənubunda yerləşən Riyad qəsəbəsinin ətrafında terrorçuların hücumu zamanı dörd polis həlak olmuşdur. Daha iki polis əməkdaşı Təlsusə kəndində öldürülmüşdür. Generalın dediyinə görə, əyalətdə genişmiqyaslı terror əməliyyatı keçirilir.

2014-cü ildə İŞİD terrorçu təşkilatı İraq ərazisinin təxminən üçdə birinə nəzarəti ələ keçirmişdi. 2017-ci ildə İraq təhlükəsizlik qüvvələri terrorçuları ələ keçirdikləri ərazilərin böyük hissəsindən qova bilmişdir.

## Nigeriyada 5 hərbçi həlak oldu, 12 quldur məhv edildi



Nigeriyanın şimal-şərqində “Boko Haram” terrorçularının yolun kənarına basdırdığı minanın partlaması nəticəsində 5 hərbi qulluqçu həlak olmuşdur. Yerli KİV-in xəbərinə görə, bomba Borno əyalətinin Damboa şəhərinin yaxınlığında hərbi qulluqçuların maşın karvanı keçərkən partlamışdır.

Son vaxtlar “Boko Haram” terror təşkilatı tez-tez hərbçilərə hücum edir. Ötən həftə Borno əyalətinin Maqumeri kəndində nəzarət-keçid məntəqəsinə hücum nəticəsində beş hərbçi öldürülmüşdür.

Bu arada Nigeriyanın şimal-qərbində ölkə ordusunun silahlı qruplaşmalara qarşı keçirdiyi əməliyyatlarda quldur dəstələrinin 12 üzvü məhv edilmiş, girov düşmüş 15 nəfər azad olunmuşdur.

Nigeriya hərbi hava qüvvələrinin yanında rabitə departamentinin direktoru İbikunle Daramolanın dediyinə görə, ordu Katsina əyalətinin Sabuva rayonunda və Kaduna əyalətinin Qvari rayonunda hava hücumu və yerüstü əməliyyat keçirmişdir. Əməliyyat zamanı xeyli sayda silah ələ keçirilmişdir.

Regionda çobanlarla fermerlər arasında vaxtaşırı qızğın toqquşma baş verir. Fürsətdən istifadə edən silahlı qruplaşmalar toqquşma zamanı fermerlərə və çobanlara hücum edərək onları girov götürürlər.

## Yəmən paytaxtı bombardman edildi



Yəməndə “Ənsar Allah” (hövsilər) hərəkatından olan qiyamçılar paytaxt Sənada nəzarət etdikləri ərazinin bombardmana məruz qalması barədə məlumat vermişlər.

“Əl-Masira” telekanalının xəbərinə görə, hücumu Səudiyyə Ərəbistanının başçılığı ilə ərəb koalisiyası həyata keçirmişdir. Sənadakı Rabat və Rakas küçələrinin kəsişməsində yerləşən yaşayış məhəllələri hücuma məruz qalmışdır. Nəticədə azı 6 dinc sakin həlak olmuş, onlarca adam yaralanmışdır. Zərərçəkənlər arasında çoxlu qadın və uşaq da var. Bombardmandan sonra bir neçə bina dağılmışdır. Xilasedicilər adamları uçqunların altından çıxarırlar.

## Çində fabrik binası uçdu

Çinin Şanxay şəhərinin Çannin rayonunda yenidən qurulması nəzərdə tutulan fabrikin binası uçmuşdur. Bu barədə şəhər yanğınsöndürmə xidmətinə istinadən “Penpay” saytı xəbər verir.

Hadisə dünən səhər saatlarında Çjaoxua küçəsində baş vermişdir. 20 nəfərdən çox fəhlə uçqunların altında qalmışdır. Onların üstünə binanın dam örtüyü düşmüşdür.

Son məlumata görə, xilasedicilər 17 nəfəri uçqunların altından çıxarmışlar. Onların hamısı xəstəxanaya yerləşdirilmişdir. Təxminən 1000 kvadratmetr ərazidə axtarış-xilasetmə işləri davam edir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırova əmisi

**ASLAN BAĞIROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı Ağalar Vəliyev Milli Məclisin deputatı Elçin Quliyevə və Sabirabad “Aqrartikinti” filialının rəisi Vaqif Məmmədova əzizləri

**ƏLİQƏMƏ QULİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatı Ağalar Vəliyev Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova əzizi

**VAQİF BABAŞOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi “Evrascon” ASC-nin İdarə Heyəti sədrinin müavini Məhəmməd Abdullayevə qardaşı

**ASİF ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Seyran Cavadov Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırova əmisi

**ASLAN BAĞIROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin kollektivi xidmətin Gəncə-Qazax regional bölməsinin müdiri Təbriz Axundova atası

**MEHDİ AXUNDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9053
Sifariş 1593
Qiyməti 40 qəpik